www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 avqust 2015-ci il çərşənbə axşamı № 180 (6208) Qiyməti 40 qəpik

Xəbər

**Şəmkirdə kişi qeyri-rəsmi yaşadığı qadını və uşağını öldürdü**

yazısı səh.14-də

Gündəm

**Zakir Həsənovun Moskva səfərlərinin əsas hədəfi**



"Azərbaycan öz qəti mövqeyini ortaya qoyub... Görünür, Rusiyanı narahat edən də elə budur"

yazısı səh.12-də

**Xarici diplomatlar Müsavat başqanı ilə nədən danışıb...**

yazısı səh.5-də

**Gənc cüdoçular aksiya keçirdilər və keçmiş naziri ittiham etdilər**

yazısı səh.13-də

*Babək Tatlıyev:*

**"Qəfil xəbər icra başçısı Tahir Budaqov üçün də gözlənilməz oldu"**

yazısı səh.3-də

**Azərbaycanda kasıblaşma dövrünün başlamasına iki fərqli baxış**

yazısı səh.5-də

**"Yeni Müsavat"ın əməkdaşları Göygöldə gördüklərindən yazır**

yazısı səh.10-da

**Türkiyə və İranın münasibətləri gərginləşir**

yazısı səh.12-də

**Əli Kərimlinin əmisi oğlunun İŞİD-i Azərbaycana çağırmasına partiya sədrindən sərt cavab...**

yazısı səh.3-də

**Vergi müfəttişləri şəhid ailəsinə divan tutur**

yazısı səh.15-də

**Xədicə İsmayılı həbs etdirən gəncin özünü də tuta bilərlər**

yazısı səh.2-də

## İqtidarda mühüm dəyişiklik anı yetişdi

# ƏN QÜDRƏTLİ NAZİR DƏYİŞDİRİLİR: "ALTILAR"DAN KİM...

Müdafiə Nazirliyində generallarla bağlı sərt qərarlar prezidentin hakimiyyətin siyasi qanadına bir mesajıdır; iqtidarda "əvəzedilməzlər" kateqoriyası ortadan qaldırılır; ən qüdrətli "general-nazir" Ziya Məmmədovun adı yenə gündəmdə...




yazısı səh.3-də

# Kremlin Xəzərdən Bakıya və Qərbə 3 mesajı

Rusiya imkanı çatan bütün həmsərhəd regionlarda əsas rəqiblərinə və "şıltaq" qonşularına güc nümayiş etdirir; Moskva Azərbaycanda hərbi baza tikməyə hazırlaşır?..

yazısı səh.11-də



*Pənah Hüseyn:*

**"Namizədlərin siyahısını açıqlamaq mümkün olmadı"**

yazısı səh.6-da



*İqbal Ağazadə:*

**"Müxalifət artıq yorulub və möcüzələr gözləyir"...**

yazısı səh. 8 və 9-da



*AXCP-dən istefa verən Sabir Məmmədov:*

**"Əli Kərimli də o yolun yolçusudur"**

yazısı səh.4-də



**Müsavat Partiyasının başqanı Arif Hacılı Raqif Kərimlini 65 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Raqif bəy!**

**Sizi 65 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, can sağlığı, işlərinizdə uğurlar və Qarabağı azad görməyi arzulayıram.**

**Siz 1988-ci ildə başlayan Azərbaycan xalq hərəkatının ilk günlərindən onun sıralarına qoşulmuş, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin fəal iştirakçılarından biri olmusunuz. Siz 1994-cü ildən Müsavat Partiyasının üzvü kimi partiyanın qərarlarının icrasında, Müsavat ideologiyasının təbliğində fəallıq göstərirsiniz. Siz uzun müddət Laçın rayon təşkilatının sədri olmusunuz. Sədr olduğunuz müddətdə vəzifənizi həmişə yüksək məsuliyyətlə icra etmiş, təşkilatın idarə olunmasında bütün bacarıq və gücünüzü sərf etmisiniz. 2003-cü il prezident seçkiləri və sonrakı seçkilər zamanı baş verən proseslərdə üzləşdiyiniz təzyiqlər zamanı nümayiş etdirdiyiniz cəsarət və əqidəyə sədaqətiniz xüsusilə təqdirəlayiqdir. Bu gün Sizin iki övladınız Fərəc və Sirac Kərimlilər hakimiyyət tərəfindən şərlənərək həbs olunub. Hər ikisi beynəlxalq birlik tərəfindən vicdan məhbusu kimi tanınıb. Övladlarınızın həbsindən sonra da Sizin qürurlu davranışınız, səmimiyyətiniz və iradəniz hər kəsə bir örnəkdir. Siz bu gün də partiyadaşlarımızla çiyin-çiyinə azad, ədalətli və demokratik cəmiyyət quruculuğu, eləcə də işğal altında olan torpaqlarımızın azad olunması uğrunda mübarizənizi davam etdirirsiniz. Fəal həyat mövqeyiniz, işgüzarlığınız, prinsipiallığınız, səmimiyyətiniz və təvazökarlığınız partiyadaşlarınız və ictimaiyyət arasında Sizə böyük nüfüz qazandırıb. Siz mehriban, qayğıkeş bir ailə başçısı, ata və babasınız. İnanıram ki, övladlarınız, nəvələriniz və Sizi tanıyan insanlar Sizinlə daim qürur hissi duyacaqlar.**

**Hörmətli Raqif bəy!**

**Sizi bir daha 65 illik yubileyiniz münasibətilə təbrik edir, apar-**

# Prezident bir qrup hərbçiyə rütbə və orden verdi

**Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında sərəncam imzalayıb.**



Sərəncama görə, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilib:

"General-leytenant" hərbi rütbəsi;

- general-mayor Azad Qaçay oğlu Ələkbərova

- general-mayor Fərhad Sabir oğlu Tağızadəyə.

"General-mayor" hərbi rütbəsi:

- polkovnik Abbas Sultan oğlu Xəlilova.

**Prezident digər sərəncamı ilə Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularını orden və medallarla təltif edib:**

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

- Xəlilov Əsgər Sabir oğlu - general-mayor

- Quliyev Asəf Vaqif oğlu - general-mayor.

"Vətən uğrunda" medalı ilə

- Babayev Aqil İnşalla oğlu - polkovnik

- Məmmədov Mübariz Qardaşxan oğlu - ədliyyə polkovnik-leytenantı

- Pirizadə Müzəffər Ələsgər oğlu - polkovnik-leytenant

- Tağıyev Mehman Məhəmmədəli oğlu - polkovnik-leytenant

- Zeynalov Eldəniz Hadı oğlu - polkovnik-leytenant.

Bundan başqa, 26 hərbçi "Hərbi xidmətlərə görə" medalı, 2 nəfər "Tərəqqi" medalı ilə təltif edilib.



Adəm Məmmədov

# "Bütün xalq qarşısında mühakimə olunmağa hazıram"

**Vəkil Adəm Məmmədov "Qəbələ" klubunun həbsdə olan sabiq kapitanı Cavid Hüseynovla görüşüb. Bu barədə report.az-a vəkil özü məlumat verib.**

Onun sözlərinə görə, Cavid Hüseynov görüşdə saxlanma şəraitindən narazılıq etməyib: "Cavid Hüseynov dedi ki, onun jurnalist Rasim Əliyevin döyülməsi məsələsindən xəbəri olmayıb. O dedi ki, mənim bu məsələyə aidiyyətim olmadığına bir Allah şahiddir. Mən bütün Azərbaycan xalqı qarşısında mühakimə olunmağa hazıram".

Vəkil qeyd edib ki, futbolçu Rasim Əliyev döyüləndən sonra onunla görüşməyindən də danışıb: "O dedi ki, oradakı söhbətlər Rasimin dostunun gözü qarşısında baş verib. Rasimin dostu da gördü ki, mənim bu məsələdən xəbərim yoxdur".



# "Rəngli inqilab" təhlükə yaradır"

## Ramiz Mehdiyev yeni kitab yazdı

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "İkili standartların dünya nizamı və müasir Azərbaycan" kitabı çapdan çıxıb.**

"AzərTAc" xəbər verir ki, Ramiz Mehdiyev bu kitabında geniş elmi axtarışlara söykənərək Azərbaycanda dövlətçilik ənənələrinin qorunmasının əsaslarını ətraflı şərh edib və buna maneələr yaradan amilləri açıq şəkildə göstərib.

Akademikin bu kitabı Azərbaycanda və dünyada baş verən siyasi proseslərin təhlili baxımından olduqca dolğun və tutarlı faktlarla zəngin bir siyasi yanaşma kimi qiymətləndirilməlidir.

Prezident Administrasiyasının rəhbəri haqlı olaraq belə bir qənaətə gəlir ki, "...rəngli inqilablar" istənilən regionda əmin-amanlıq üçün təhlükə yaradır və yalnız ABŞ-ın xoşu gəlməyən rejimləri onun nəzarət etdiyi hökumətlərlə əvəz etmək məqsədi güdür".

"Şərq-Qərb" nəşriyyat evi tərəfindən çap olunan kitab oxuculara Azərbaycan və rus dillərində təqdim edilir.

Kitabda filosof alimin "İlham Əliyev yeni əsrin yeni lideridir", "Azərbaycan yalnız bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan dialoq aparmaq əzmindədir və buna hazırdır, dövlətlərarası münasibətlərin başqa formaları onun üçün qəbuledilməzdir" sərlövhəli müsahibələri və "İkili standartların dünya nizamı və müasir Azərbaycan" adlı məqaləsi yer alıb.

Kitab politoloq alimlər, ali məktəblərin müəllimləri və tələbələri, habelə geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.



# Sumqayıta qatarla gedişin qiyməti açıqlandı

**Bakı-Sumqayıt qatarında gediş haqqı 50 və ya 70 qəpik ola bilər. Bunu "Trend"ə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Nadir Əzməmmədov deyib. Nəqliyyat Nazirliyinin Sərnişin Daşıma Departamenti artıq bu barədə təkliflərini Tarif Şurasına təqdim edib. Qiymətləri Tarif Şurasının müəyyənləşdirəcəyini deyən N.Əzməmmədov gediş haqqının kart sistemi ilə olub-olmayacağına da aydınlıq gətirib:**

"Qərar yaxın vaxtlarda verilməlidir. Çünki sentyabrın 15-nə kimi Bakı-Sumqayıt qatarı istifadəyə verilməlidir. Qiymətlər barədə qərar veriləndən sonra çalışacağıq ki, burada da kart sistemini tətbiq edək. Amma yəqin ki, kart sistemi bir müddət sonra tətbiq olunacaq. Çünki bu, bir az zaman alan məsələdir".

Mətbuat katibi bildirib ki, Bakı-Sumqayıt dəmir yolunda son tamamlama işləri aparılır, layihədə 63 kilometr yeni xəttin tikintisi nəzərdə tutulub.

Bakı-Sumqayıt xəttinə buraxılacaq qatarlar "Stadler Rail Group" şirkətinin "Stadler Minsk" zavodunda istehsal olunub. Ümumi sərnişin tutumu 919 nəfər olan hər bir qatarda 396 oturacaq var ki, onlardan da 84-ü biznes-klassdır.



# Xədicə İsmayılın həbsinə səbəb olan gənc haradadır?

## Tural Mustafayevi həbs edə bilərlər

**AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılın məhkəməsində verilən ifadələr, baş verən proseslər cəmiyyətin diqqət mərkəzindədir. Son olaraq xanım jurnalistin həbsinə səbəb olan gənc jurnalist Tural Mustafayevin məhkəmədə verdiyi ifadə bütün sual işarələrinə son qoydu. Belə ki,**

T.Mustafayev ifadə verərkən bildirib ki, X.İsmayılın onun intihar cəhdinə bağlılığı yoxdur. Onun sözlərinə görə, öz nişanlısı ilə mübahisədən sonra bu addımı atıb. Eyni ifadəni T.Mustafayevin atası Bulud Mustafayev də təsdiqləyib. O da deyib ki, oğlunun daha öncəki intihar cəhdində X.İsmayılın hər hansı rolu olmasından xəbərsizdir.

Amma məhkəmədə ifadə verənlər arasında istintaqın toruna düşənlər də olub. Belə ki, T.Mustafayevlə eyni evdə qalan jurnalist Cavid Abdullayevin istintaqa verdiyi ifadə elan edilərkən məlum olub ki, sonuncu T.Mustafayevin ona vaxtilə "mən hara gedirəmsə, Xədicə məni işdən çıxartdırır" dediyini bildirib. İstintaqa verdiyi bu ifadə elan ediləndən sonra C.Abdullayev deyib ki, bu ifadəni təsdiqləmir, çünki onu oxumadan imzalayıb. Amma ekspertlər ehtimal edir ki, məhkəmə bu sayaq işlərdə olduğu kimi yenə də istintaqa verilən ifadəni əsas götürəcək.

Tural Mustafayevin keçmiş həyat yoldaşı Şəfa Mustafayeva da ifadəsində əvvəllər münasibətlərinin yaxşı olduğunu, lakin Tural Bakıya gedəndən sonra aralarında problem yarandığını, Tural Rövşanə ilə nişanlanandan sonra isə boşandıqlarını deyib. Bununla da X.İsmayılın üzərindən "Turalın ailəsini dağıdan adam" damğası götürülüb.

İndiki məqamda isə əsas sual işarəsi T.Mustafayevlə bağlıdır. Çünki məhkəmədə X.İsmayılın lehinə ifadə verəndən sonra bu gənci "gördüm" deyən yoxdur. T.Mustafayevin telefonlarına zəng çatmır, facebook ünvanı isə deaktiv edilib. "Yeni Müsavat" xatırladır ki, T.Mustafayev hazırlıq iclasına gələndə də jurnalistlərə "məni vaxtilə oğurlayan şəxslər də indi burdadır. Onlar özlərini mənə burda tez-tez göstərərək, mənəvi təzyiq göstərirlər" demişdi. İndiki məqamda isə istintaqın planını pozaraq xanım jurnalistin lehinə ifadə verən T.Mustafayevin həbs ehtimalı güclüdür. Onun hansısa formada cəzalandırılacağı istisna deyil.

Əldə etdiyimiz məlumata görə, T.Mustafayevin ilk günlər istintaqın xəttinə uyğun addımlar atması təsadüfi olmayıb. Müstəntiq səviyyəsində ona keçmiş nişanlısı Rövşanə ilə barışdırılacağı vədi verilib. Bütün arzusu keçmiş nişanlısı ilə yenidən bir araya gəlmək olan T.Mustafayevə isə son anda rədd cavabı verilib. Ancaq bundan sonra gənc jurnalist də mövqeyini kəskin surətdə dəyişib.

❑ Sevinc TELMANQIZI



# Şirkət direktoru BMCMİ-yə müraciət etdi: 10 min manata görə

**"Günel" MMC-nin direktoru Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə (BMCMİ) müraciət edib. Musavat.com-un əldə etdiyi məlumata görə, MMC-nin direktoru Çingiz Həsənov "Azər Etalon Test" MMC-nin direktorundan şikayət edib. Çingiz Həsənov 2014-cü ildə Murad İbrahimovun direktoru olduğu "Azər Etalon Test" MMC-yə 10 min manat ödədiyini, lakin bunun qarşılığında vəd edilən işin görülməməsindən şikayətçidir.**

Şirkət direktorlarının aralarındakı razılaşmaya görə, Murad İbrahimov aldığı məbləğin qarşılığında betonqarışdıran aparatın quraşdırılmasını öhdəsinə götürübmüş.

❑ İlkin MURADOV

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05



# Yazarımız Tofiq Yaqubluya Azadlıq!



## Əli Kərimlinin əmisi oğlunun İŞİD-i Azərbaycana çağırmasına partiya sədrindən sərt cavab...

### İ.Kərimovun statusu cəmiyyətdə etiraz doğurub; AXCP rəhbərliyi hələ də bu məsələdə susur

### Əhməd Oruc: "Cəbhəçilər həddindən artıq radikallaşıblar"

**AXCP sədri Əli Kərimlinin Fransada yaşayan əmisi oğlu İnqilab Kərimovun İŞİD-ə dəstək verən, bu qaniçən terrorçu qruplaşmanı ölkəmizə dəvət edən status yazması barədə xəbər vermişdik. Statusda açıq şəkildə İ.Kərimov İŞİD-i onu və partiya sədri olan əmisi oğlu Əli Kərimlini bəyənməyənlərin başını kəsməyə çağırır.**

Yazılan status cəmiyyət arasında ciddi etirazla qarşılanıb. Qınaq obyektinə tuş gələn statusda bu fikirlər yer alır: "İŞİD heç də hər adamın başını kəsmir...İŞİD 5 manata sifarişlə məhkəmə zalını dolduranların başını kəsir...İŞİD adını dindar qoyub, cindarlıqla məşğul olanların başını kəsir... İŞİD adını müxalifət qoyub, nazirliklərə dal qapıdan girib-çıxanların başını kəsir...Və düşünürəm ki, düz də edir... Azərbaycana XOŞ gəlirsən, İŞİD..."

Göründüyü kimi, status heç də dövlətimizə və İ.Kərimovun rəhbərliyində yer aldığı AXCP-yə başucalığı deyil. Amma nədənsə partiya rəhbərliyi bu məsələdə susur. Hətta statusdakı "Like" və rəylərin əksəriyyəti də qurumun üzvləri tərəfindən edilib. Demokratiyadan, insan haqlarından dəm vuran bir qurumun üzvünün yazılarına biganə qalması, hətta dəstək verməsi suallar yaratmaya bilməz. Fakt ondan ibarətdir ki, Əli Kərimlinin icazəsi olmadan kimsə belə status yazmaz. Çünki hər hansı bir üzvün partiya liderinin xoşuna gəlməyən, maraqlarına xidmət etməyən fikirləri sosial şəbəkələrdə yer aldıqda, Kərimli dərhal müdaxilə edərək sildirir.

İnqilab Kərimov Fransadan siyasi sığınacaq alıb. Onun bu tərzdə yazdığı status heç də onun üçün asan olmayacaq. Bütün dünyanın terror qruplaşması kimi tanıdığı İŞİD-ə dəstək verən bir şəxsi Fransanın öz ərazisində himayə edəcəyi inandırıcı görünmür. Bu baxımdan İ.Kərimov Fransadan deportasiya edilə bilər. Onun barəsində cinayət işi açılması ehtimalları da var.

Hakimiyyətə iddiasını ortaya qoyan bir partiyanın liderinin əmisi oğlunun belə statusu gələcək təhlükələrin siqnalıdır. Bu insanlar hakimiyyətə gəlsələr, görün nə fəsadlar yaşayarıq.

**Azadlıq Partiyasının sədri Əhməd Oruc "Yeni Müsavat"a açıqlamasında İ.Kərimovun fikirlərinə kəskin etirazını bildirdi:** "Azərbaycanda dəyərlər sistemi ciddi şəkildə aşağı düşüb. Kimin demokrat olub-olmaması məlum deyil. Bu cür fikirlər də bunun nəticəsində ortaya çıxır. Bir səbəb də uzun illər müxalifətdə qalmağın nəticəsində aqressivləşən bir təbəqənin özünü bu şəkildə ifadə etməsidir. Azərbaycandan kənarda yaşayıb, daxildə kimlərisə təhqir edən fikirlər səsləndirmək etikadan uzaqdır. Burada hansı ağır şərtlər daxilində mübarizə aparmağı onlar da yaxşı bilirlər. Bütün bunlar əxlaqdan uzaq hallardır. İnqilab bəy, hansısa məsləhəti verə bilərsən. Amma ilk növbədə, özünə baxıb addım atmalısan. Mübarizə aparmağa nə qədər yararlı olub-olmadığını düşünməlisən. Təəssüf edirəm ki, Azərbaycanda hakimiyyətdən qovulmuş insanların olduğu Milli Şura başda olmaqla, bəzi qurumlar barışıq mühitinin yaranmasının əleyhinədirlər. Belə radikal mövqe tutmaqla biz nəyə nail olmuşuq? Onlar əxlaqdan kənar ifadələr işlətməkdə davam edirlər. Cəbhəçilər həddindən artıq radikallaşıblar. Onlar vahid mərkəzdən idarə olunurlar. Onları maliyyə vasitəsilə əldə saxlayan qurumlar belə radikallığın olmasında maraqlıdılar".

❑ Cavanşir ABBASLI



# İqtidarda mühüm dəyişiklik yetişdi

**Müdafiə Nazirliyi strukturunda başlamış kadr dəyişiklikləri yaxın günlərdə hakimiyyətin siyasi qanadını da əhatə edəcək. Bu sensasion məlumatı redaksiyamıza verən qaynağın sözlərinə görə, prezidentin Müdafiə Nazirliyi strukturunda apardığı dəyişikliklər əslində gözlənilən olub.**




# Siyasi komandanın "generalı" dəyişir: "altılar"dan kim...

### Müdafiə Nazirliyində generallarla bağlı sərt qərarlar prezidentin hakimiyyətin siyasi qanadına bir mesajıdır; iqtidarda "əvəzedilməzlər" kateqoriyası ortadan qaldırılır; ən qüdrətli "general-nazir" Ziya Məmmədovun adı yenə gündəmdə...

Belə ki, Zakir Həsənovun 2013-cü ilin oktyabrında nazir təyinatından sonra Səfər Əbiyevin "kabinet generalları"nın yeni iş rejiminə uyğunlaşa biləcəyinə ümidlər vardı. Amma belə görünür ki, orduda qısa müddətdə ciddi islahatlar aparan nazirlə bəzi generallar ayaqlaşa bilməyib və Ali Baş Komandan bu səbəbdən sərt qərarlar verməli olub.

Məlumatlara görə, generallarla bağlı sərt qərarlar verilməsində rüşvət və korrupsiya kimi məsələlərin rolu olduğu da xüsusi qabardılır ki, bu da hakimiyyətin siyasi qanadına bir mesajdır. Çünki İlham Əliyev son keçirdiyi müşavirələrdə bir neçə dəfə hakimiyyət komandasındakı problemlərə toxunaraq ayrı-ayrı məmurların özbaşınalığından, dövlət əmlakının mənimsənilməsindən danışıb və sərt cəza tədbirlərinin görüləcəyini deyib.

İslahatların özlərini az qala toxunulmaz hesab edən ordu generallarından başlamasının siyasi və psixoloji anlamı həm də budur ki, prezident kadr dəyişikliyində qərarlıdır və iqtidarda "əvəzedilməzlər" kateqoriyası daha yoxdur.

Dövlət başçısı iyulun 13-də keçirdiyi müşavirədə də ayrı-ayrı məmurların rəhbərlik etdiyi nazirliklərin fəaliyyətindən narazılığını açıq dilə gətirmişdi. "Yeni Müsavat" hələ ötən ay kadr dəyişikliyinin gözlənilməsi barədə yazmışdı. Yazıda bildirilirdi ki, hakimiyyət iri məmur-oliqarxların vurulması, səlahiyyətsizləşdirilməsi üçün islahatları rayonların icra başçılarından başlamaq niyyətindədir. Ötən həftəsonu heç kimin gözləmədiyi halda Nizami Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov vəzifəsindən çıxarıldı. T.Budaqovun icra başçısı kimi fəaliyyətindən hakimiyyət narazı idi və onun Statistika Komitəsinə sədr təyinatı vəzifə yüksəlişi sayıla bilməz. Gözlənilir ki, bu proses tezliklə daha da sürətlənəcək. Çünki müəyyən rayonlarda əhalinin icra başçılarından narazı olduğu barədə Prezident Administrasiyasının keçirdiyi sosioloji sorğuların nəticələri var.

Bakının Xətai, Səbayel, Nəsimi, Binəqədi, Abşeron, habelə Gədəbəy, Neftçala, Yevlax və Zərdabın icra hakimiyyətinin başçılarının da yaxın vaxtlarda vəzifələrindən vidalaşacağı ilə bağlı məlumatlar da bu sorğunun nəticələrindən qaynaqlanır. Qeyd edək ki, adıçəkilən rayonların icra başçılarının adı son vaxtlar bir sıra qalmaqallarda da hallanır. Xətai və Binəqədidə yaşayış binalarının yanması bu rayonların icra başçılarının faktiki hökmünü verib. Səbayelin icra başçısı isə bir nəfərin ölümü ilə nəticələnən qəzadan sonra oğlunun barəsindəki məhkəmə qərarının dəyişdirilməsi ilə yenidən gündəmə gəlib. Gədəbəyin icra başçısı da sahibkarlara qarşıdurma səbəbindən "medianın ulduzuna" çevrilib. Abşeronun icra başçısı haqda da uzun müddətdir ki, xeyli şikayətlər var. Xəbərlərdə qeyd olunur ki, bu icra başçıları bir daha heç vaxt hər hansı vəzifəyə təyinat almayacaqlar.

Gözlənilir ki, əsas dəyişikliklər həm də Nazirlər Kabinetinin tərkibindən olacaq. Gözlənilən kadr dəyişikliklərindən yazan modern.az saytının xəbərinə görə, Ziya Məmmədov tutduğu nəqliyyat naziri postundan uzaqlaşdırılacaq. Sayt bildirib ki, nəqliyyat naziri baş nazirin müavini postuna gələcək. Artıq məsələ ilə bağlı Ziya Məmmədovun özünün məlumatlandırıldığı da deyilir. Onun hansı sahələrə nəzarət edəcəyinə gəlincə, qeyd edilir ki, bir neçə baş nazirin müavini kimi Ziya Məmmədov da daha çox kabinet adamı olacaq.

Qeyd edək ki, Ziya Məmmədovun baş nazirin müavini olacağı barədə xəbərlər yeni deyil. Hələ 2013-cü il seçkisi ərəfəsi Z.Məmmədovun baş nazirin müavini təyin olunacağı və nəqliyyat sahəsini kurasiya edəcəyi barədə elə "Yeni Müsavat"da da xəbərlər dərc olunub.

Baş nazirin hazırda 6 müavini var. Yaqub Eyyubov *(baş nazirin birinci müavini)*, Elçin Əfəndiyev, Əli Həsənov, Abid Şərifov, Əli Əhmədov və İsmət Abbasov. Nəqliyyat sahəsini 2006-cı ilədək Abbas Abbasov kurasiya edib. Amma onun istefaya göndərilməsindən sonra bu səlahiyyətlər Yaqub Eyyubova deyil, Abid Şərifova verilib. Əgər deyilənlər doğrulanarsa, Z.Məmmədov ya Abid Şərifovun yerinə təyinat almalı, ya da sadəcə səlahiyyətsiz baş nazir müavini olmalıdır. Son günlər istifadəyə verilən yeni yolların açılışında nəqliyyat nazirinin gözə dəyməməsi onun məzuniyyətdə olması ilə izah olunur. Amma yayılan bu tip xəbərlər Z.Məmmədovun başı üzərində "qara buludların" sıxlaşdığını göstərir.

Nəqliyyat nazirinin yerinə kimin təyin ediləcəyi barədə də xəbərlər yeni sayıla bilməz. Bu sırada ilk yerdə bu ilin fevralında "Azərbaycan Dəmir Yolları" ASC-nin rəhbəri təyin edilən Cavid Qurbanovdur. Məlumata görə, C.Qurbanov noyabrdakı parlament seçkilərinə qatılmayacaq. Bunun səbəbi isə onun nazir təyin ediləcəyi ilə izah edilir.

Müdafiə Nazirliyində kadr islahatları ilə Z.Məmmədovun postunu itirəcəyi barədə xəbərlər arasında qəribə bir bağlılıq qurmaq da mümkündür. Çünki Z.Məmmədov da siyasi hakimiyyətin ən qüdrətli naziri kimi çoxdan "general" statusundadır.

Bəlkə siyasi komandada dəyişikliyin də Z.Məmmədovdan başlaması digərləri üçün bir mesaj olacaq...

❑ "Yeni Müsavat"

# "Qəfil xəbər Tahir Budaqov üçün də gözlənilməz oldu"

### Babək Tatlıyev Nizami Rayon İcra Hakimiyyəti başçısının yeni təyinatından danışdı

**Xəbər verildiyi kimi, prezidentin sərəncamı ilə Tahir Budaqov Dövlət Statistika Komitəsinin sədri təyin edilib. Dövlət başçısının növbəti sərəncamı ilə T.Budaqov Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.**

Nizami RİH-in təsərrüfat şöbəsinin müdiri Babək Tatlıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hazırda Nizami Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini müavin İldırım Mehdiyev icra edir: "Yeni təyinatla bağlı bizdə heç bir məlumat yoxdur. Hətta nə bir məlumat var, nə də ehtimal. Bu, elə bir prosesdir ki, bizim xəbərimiz ola da bilməz. Çünki prezidentin səlahiyyətində olan məsələdir. İcra hakimiyyəti yalnız təyinatı gözləməklə məşğuldur. Bizim nə ehtimallarımız, yaxud da fərziyyələrimiz burda heç bir rol oynamır. Amma açığını deyim, hələ ki bir xəbər yoxdur".

Maraqlıdır, keçmiş başçının yeni təyinatı icra hakimiyyəti işçiləri üçün gözlənilməz olmayıb ki? B.Tatlıyev "Qəfil xəbər təbii ki, hamı üçün, nəinki bizimçün, elə onun özü üçün də gözlənilməz oldu" deyə, etiraf etdi.



Babək Tatlıyev

**Bununla belə, B.Tatlıyev qeyd etdi ki, keçmiş başçının irəli çəkilməsi yaxşı hadisədir:** "Bu, yerli icra hakimiyyəti orqanıdır, o birisi isə mərkəzi icra hakimiyyəti orqanıdır. Yeni komitə sədri daha yüksək vəzifədir".

**B.Tatlıyev yeni təyinatdan sonra icra hakimiyyətində kadr dəyişikliklərinin aparılacağının gözlənilməz olub-olmadığını da konkretləşdirmədi:** "Ancaq yeni icra başçısı gələndən sonra bu məsələni müzakirə etmək, yaxud nəsə gözləmək olar. Bu, başçıdan asılı məsələdir. Ancaq rayonun ümumi inkişaf strategiyasında, yaxud burda aparılan işlərdə mən elə bir dəyişiklik gözləmirəm. Çünki başçının dəyişməsindən asılı olmayaraq, bunlar Dövlət Proqramı ilə həyata keçirilən işlərdir. Kadr məsələlərinə gəlincə, bunu ancaq yeni rəhbərlik bilə bilər, biz heç bir fikir söyləyə bilmərik".

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 180 (6208) 18 avqust 2015



# "Fors-major" ehtimalı

Azər RƏŞİDOĞLU

**Parlament seçkilərinə ciddi bir hazırlıq getməsə də, sayılı günlərdən sonra ölkənin siyasi mənzərəsində ciddi dəyişikliklər olacaq. Seçkilərə qədər iqtidarın seçəcəyi taktika bəllidir. Ehtimal etmək olar ki, kadr siyasətində müəyyən korrektələr olacaq.**

Hakimiyyət kadr dəyişiklikləri həyata keçirməklə xarici və daxili təzyiqlərdən xilas olmaq istəyir. Lakin siyasi idarəetmədə iqtidarın yeritdiyi xətt o dərəcədə sərtdir ki, artıq cəmiyyət tamamilə çökdürülüb. Müxalifət, mətbuat, qeyri-hökumət təşkilatları demək olar ki, sıradan çıxardılıb. Sağdan-soldan bütün rəqiblərindən "xilas" olan hakimiyyət düşmən axtarışına o qədər aludə olub ki, artıq iqtidar dəhlizlərində "əcinnə ovu" başlayıb.

Müxalifətin, vətəndaş cəmiyyətinin, mətbuatın sıradan çıxardılması iqtidar dəhlizlərində mərkəzdənqaçma tendensiyalarına səbəb olub. Artıq iqtidarın monolit komandasından danışmaq mümkün deyil. Hakim komanda ən azı iki barışmaz düşərgəyə bölünüb.

Azərbaycanda hazırda baş verənlər yalnız analitik təfəkkür cılızlığına dəlalət etmir, eyni zamanda ətalət qanununa uyğun həyata keçirilir.

2015-ci il seçkilərinə hazırlaşan siyasi qüvvələrin ilk növbədə məqsədi cəmiyyəti ətalətdən çıxartmaq olmalıdır. Azərbaycan cəmiyyətinə Qərb tərəfindən kifayət qədər "qıcıq siqnalları" ötürüldü. Lakin Qərb mətbuatının ifşaedici məqalələri durğunluğu aradan qaldıra və cəmiyyəti skeptik düşüncələrdən azad edə bilmədi.

Cəmiyyətin ifrat zəifliyi, maliyyə resurslarının məhdudiyyəti qeyri-bərabər mübarizə meydançası yaradır. Deməli, standart metodlarla siyasi prosesləri dəyişmək olduqca qəliz olacaq.

Siyasi araşdırmaçıları belə bir sual düşündürür: 2015-ci ildə müxalifət namizədləri kifayət qədər səs toplayacağı halda zorakılıqla etirazların yatırılmasının qarşısını almaqdan ötrü beynəlxalq dəstəyə malikdirmi?

İqtidar hakimiyyətdən gedəcəyi təqdirdə radikal qüvvələrin meydana çıxacağı ilə hədələyir. Bu baxımdan, müxalifət daxilində daha radikal qanadın mövcudluğuna ehtiyac yaranır. Radikalların atacağı addımlar istər-istəməz mötədil qruplarla danışıqlar masasında oturmağı istər hakimiyyət, istərsə də Qərb üçün qaçılmaz edəcək.

Digər tərəfdən, müxalifətin Azərbaycanda özünə dəstək axtaran Rusiya və İranla yaxınlaşması Qərbi düşünməyə vadar edərdi.

Hakimiyyət Qərbin təzyiqlərinin artacağı təqdirdə İran və Rusiya ilə daima qorxudub, bu amil də müxalifətə dəstəyin yaranmasına səbəb olmayıb, əksinə, iqtidarla işləməyin zəruriliyi fikrini yaradıb. Bu metoddan da bəhrələnməyə dəyər.

Vurğulayaq ki, Qərbi və elə hakimiyyətin özünü də ehtiyatlı olmağa vadar edən başlıca amillərdən biri sabitliyin pozula biləcəyi, fors-majorun yaranma ehtimalıdır. Deməli, bu müstəvidə manevr etməyə dəyər.

Sivil mübarizə metodlarından məhrum edilmiş cəmiyyətlərdə radikallaşmaq qaçılmaz olur.

Lakin bu halda da iqtidar 2003-cü ilin taktikasından istifadə edərək, zorakılığa əl ata bilər. Belə bir təhlükə daima mövcuddur. Bunun qarşısını almağın tək yolu beynəlxalq təzyiqlərdir. Lakin pərakəndə şəkildə olan, qarşılıqlı savaşlarda zəifləyən müxalifətə belə bir dəstəyin gələ biləcəyi inandırıcı deyil.

Deyilənlərdən çıxan nəticə budur ki, mövcud şəraitin dəyişməsinə nail olmadan atılan heç bir addım məğlubiyyətdən sığortalanmayıb. Deməli, əsas məqsəd mənasız mübahisələr deyil, vəziyyətin dəyişdirilməsinə nail olmaq və beynəlxalq dəstəyi qazana bilməkdir. Bu istiqamətdə isə bir durğunluq hökm sürməkdədir.

# AXCP-dən istefa verəni hədələyiblər

## "Azadlıq"ın yalanı üzə çıxdı; Sabir Məmmədov: "Əli Kərimli də, demək, o yolun yolçusudur"

**AXCP-də son aylarda yaşanan böhran kritik həddə çatıb. Təsadüfi deyil ki, keçən həftə qurumdan iki funksionerin istefası reallaşdı. Bunlar Gəncə şəhər şöbəsinin üzvü, partiyanın Qərb bölgəsi üzrə kuratoru, əməkdar müəllim Sabir Məmmədov və hazırda həbsdə olan Sumqayıt təşkilatının sədri İsa Qurbanov oldu.**


AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SEÇKİLƏRİ 201
Sabir Həsən oğlu Məmmədov
namizədin təyinatı əsasında
Cəmil Poladxan oğlu Həsənli
MSK sədri M.PƏNAHOV
SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ № SN 2

Hər iki funksioner getmələrinin səbəbi kimi, rəhbərliyin siyasətindən narazı olduqlarını bildirdilər. Hətta İ.Qurbanov həbsxanadan göndərdiyi müraciətdə YAP-a keçdiyini açıq şəkildə bəyan etdi.

Hər iki şəxsin istefasına AXCP-nin mövqeyi maraqlı oldu. Qurumun mətbuat orqanı funksiyasını icra edən "Azadlıq" qəzetindəki məlumatda S.Məmmədovun, ümumiyyətlə, AXCP üzvü olmadığı qeyd olunub. Qəzetdə gedən xəbəri olduğu kimi təqdim edirik: "AXCP-dən ayrılma səbəblərini partiyanın idarəçilik sistemindəki nöqsanlarla izah etməyə çalışan bu şəxsin iddialarının nə dərəcədə əsaslı olduğunu öyrənmək üçün qurumun Gəncə şəhər Məclis sədri Qaçay Abbasovla əlaqə saxladıq. Məlum oldu ki, Sabir Məmmədov, ümumiyyətlə, AXCP-nin üzvü olmayıb. Qaçay Abbasovun dediklərindən: "Sabir Məmmədov 2013-cü il seçkiləri ərəfəsində AXCP-yə üzv olması üçün ərizə ilə müraciət etmişdi. Həmin vaxt o, Milli Şuranın prezidentliyə namizədi Cəmil Həsənlinin seçki kampaniyasına öz təşəbbüsü ilə könüllü kimi qoşulmuşdu. Biz də onun ərizəsini qəbul etdik. Lakin ona rəsmi üzvlük vəsiqəsi verilməyib. Çünki partiya rəhbərliyinə təqdim etdiyi sənədlərə baxış keçirilməmiş, onun Azərbaycan Demokratiya və Rifah Hərəkatında fəaliyyət göstərməsi haqda məlumat aldıq. Başqa təşkilatda fəaliyyət göstərən birisinin AXCP-dən istefa verdiyini bəyan etməsi sadəcə gülüncdür".

**"Yeni Müsavat"a müraciət edən Sabir Məmmədov AXCP rəhbərliyini yalançılıqda suçladı. O, "Azadlıq" qəzetində istefası ilə bağlı barəsində gedən məlumatda Qaçay Abbasovun adından fikirlər yazıldığını bildirdi:** "Mətbuata Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi olmağımla bağlı vəsiqə təqdim etmişəm. Bundan əlavə, Əli Kərimlinin öz imzası olan partiya üzvlüyümü təsdiq edən bileti də göstərmişəm. Partiya vəsiqəmin nömrəsi 400201-dir. 1 fevral 2012-ci ildən həmin partiyanın üzvüyəm. Qeyd olunur ki, guya Gəncə AXCP Məclisinin


AXC AZƏRBAYCAN XALQ CƏBHƏSİ PARTİYASI
Üzvlük vəsiqəsi: № 400201
Soyadı: Məmmədov
Adı: Sabir
Atasının adı: Həsən oğlu
Bir kərə yüksələn bayraq,
Bir daha enməz !
M.Ə.Rəsulzadə
AXCP sədri: Ə.Kərimli
Verildiyi tarix: 01.02.12
AXCP 01 sentyabr 1995-ci il tarixində Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 30)

sədri Qaçay Abbasov üzv olmağımı inkar edib. Bildirib ki, belə bir üzvümüz yoxdur. Onun özü ilə danışdım. And içdi ki, belə bir açıqlama verməyib, "Azadlıq" qəzeti onun adından yazı dərc edib. O, beş-altı partiya üzvünün yanında mənə dedi ki, əgər belə sözlər desəm, səndən üzr istəyərəm. Açıqca dedi ki, Gözəl Bayramlı onun adından açıqlama uydurub. İstefamdan sonra Gözəl üzərimə gəldi. Mənə deyir ki, niyə "Yeni Müsavat"a açıqlama verirsən? Mən də dedim ki, belə məsləhət gördüm. "Yeni Müsavat"da obyektivliyin olduğunu bildirdim. Qayıdıb mənə deyir ki, nə ilə sübut edə bilərsən? Gözümlə gördüklərimə uyğun addımlar atdığımı dedim. İstefamdan peşman deyiləm. Bunu Gözələ də dedim".

**Sabiq partiya funksioneri Gözəl Bayramlının onu hədələdiyini də qeyd etdi:** "Gözəl mənə dedi ki, səninlə hesablaşacağıq. Mənə möhkəm hədə-qorxu gəldilər. Üzvlər mənə deyirlər ki, sən qorxursan? Bunlar insanları qorxu altında partiyada saxlayırlar. Hamı onlardan bezib. Heç nədən qorxum yoxdur. Hesab etmirəm ki, mənə təhlükə yaratmağa gücləri çatsın. Əli Kərimlinin partiyada nələrin baş verdiyindən xəbəri var. Qarşısını almaq üçün tədbirlər görmürsə, demək, o da bu yolun yolçusudur. Partiyanın daxilində nizam-intizam olar. Qaydanı pozan hər bir üzv partiyadan xaric olunmalıdır. Amma belə şəxslər AXCP rəhbərliyi tərəfindən himayə edilir. Gözəl ikiüzlü adamdır. Samuxda mənə dediyi sözü Gəncədə dandı. İstefamdan sonra Əli bəy bir dəfə də olsun mənə zəng etmədi. Təkcə Gözəl Bayramlı zəng vurdu. O da məni hədələmək üçün. "Yeni Müsavat"a müsahibə verməkdə düz etdiyimi ona da dedim. Belə bir partiya mənə lazım deyil. Orada saxtakarlıqla işləməkdən başqa əllərindən bir iş gəlmir. Məni Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi təyin ediblər. Amma "Azadlıq" qəzeti yazır ki, belə bir şey yoxdur. Bunların iç üzləri budur. Seçkilər ərəfəsində mənə digər partiyalardan pullar təklif olundu. Amma nə digər partiyaya keçdim, nə də təmsil olunduğum partiyanı satdım. İnsanda ən təmiz varlıq vicdandır".

**S.Məmmədov Müsavat başqanlığına keçmiş namizəd Qubad İbadoğlunun yaratdığı Demokratiya və Rifah Hərəkatının üzvü olduğunu açıqladı:** "İyunun 28-dən bu hərəkata qoşuldum. Ellada Məmmədli təsis iclasında iştirak edirdi. Qaçay bəyin özü də ADR-in üzvüdür. Burada cəbhəçilərdən bu qurumun üzvü olanlar çoxdur. "Azadlıq" qəzetinin yazdıqları böhtandır. Birbaşa Əli Kərimlinin tapşırığı ilə məlumat yazılıb. Bunların siyasəti bundan ibarətdir".

**İ.Qurbanovun istefası ilə bağlı sosial şəbəkələrdə status paylaşan partiya lideri Əli Kərimli onun addımını təzyiqlərlə əlaqələndirib. AXCP sədri onun həbsinin gizlədilməsinin səbəbləri barədə geniş məlumat verib:** "İsa Qurbanov İlham Əliyevə son müraciətində azadlığa çıxmaq üçün ondan istənilən hər şeyi etdi. Keçmiş əqidə yoldaşlarını təhqir edib yamanladı. YAP-a keçdiyini bəyan etdi. Bütün bunlardan sonra indi nə istəyirsiniz? Adamı azad edin, getsin ailəsinin yanına, öz ömrünü yaşasın".

**Adından açıqlama yazıldığı iddia edilən Qaçay Abbasovun özü ilə danışmağa nail olduq. O, açıqlamasının təhrif olunduğunu etiraf etdi:** "Demişəm ki, Sabir müəllimin mənə ərizəsi olmayıb. Bəzi fikirlər adımdan yazılıb. Amma üzv olması ilə bağlı ərizəsinin şahidi olmamışam. Partiyanın üzvü olduğunu da deyə bilmərəm. Mən onu 2013-də tanımışam. Cəmil bəyin səlahiyyətli nümayəndəsi kimi. Sonradan bildirdi ki, AXCP-nin Qərb üzrə səlahiyyətli nümayəndəsidir. Qəzetdəki yazılar mənə aid deyil. Mənə zəng edib fikir almaq istəyiblər. Demişəm ki, təşkilatın sədrindən alın. Sabir müəllim və mən ADR-in üzvüyük".

Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 180 (6208) 18 avqust 2015

**Parlament seçkilər yaxınlaşdıqca Azərbaycanda fəaliyyət göstərən xarici diplomatik korpusun, bəzi beynəlxalq təşkilatların təmsilçilərinin müxalifət partiyaları ilə təmasları, müzakirələri intensivləşir. Təkcə keçən həftənin cümə günü bu cür bir neçə görüş keçirilib. Məsələn, Böyük Britaniyanın Azərbaycandakı səfiri İrfan Siddiq Müsavat Partiyasının qərargahında partiyanın başqanı Arif Hacılı ilə görüşüb. Elə həmin gün ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun nümayəndələri-Radovoji Grujic və Richard Lappin Müsavat Partiyasının başqanı Arif Hacılı, Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı, həmçinin Milli Şuranın təmsilçiləri, "REAL" Vətəndaş Hərəkatının təmsilçisi Natiq Cəfərli ilə görüşüb.**

# Diplomatlar Müsavat başqanı ilə nədən danışıb...

## Arif Hacılı: "Beynəlxalq birlik Azərbaycanda noyabr ayının 1-də keçiriləcək parlament seçkilərinə xüsusi önəm verir"

Hər iki görüşlə bağlı yayılan xəbərlərdə müzakirə edilən məsələlər sırasında 1 noyabr parlament seçkilərinin əsas yer tutduğu bildirilib.

Bəs görüşlərdə beynəlxalq təşkilatlar və diplomatik korpus təmsilçiləri müxalifət düşərgəsinə hansı mesajları verirlər?

**Bu barədə sualımıza Müsavat başqanı Arif Hacılı** cavab verib. Arif Hacılı bildirdi ki, beynəlxalq birliyin, o cümlədən Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalara marağının artması təbiidir. Fərqli cəhət isə ondan ibarətdir ki, bu görüşlər son dövrlər çox intensiv xarakter alıb və hər şeydən görünür ki, beynəlxalq birlik Azərbaycanda noyabr ayının 1-də keçiriləcək parlament seçkilərinə xüsusi önəm verir, bu seçkilərdə siyasi partiyaların fəal iştirakında maraqlıdır.

**"Azərbaycanda seçkilərin demokratik keçiriləcəyinə diplomatik korpus təmsilçilərinin inamı varmı? Seçkilərin demokratik keçirilməsi üçün onlar tərəfindən Azərbaycan hakimiyyəti ilə iş aparılması gözlənilirmi"** sualına A.Hacılı belə cavab verdi: "Beynəlxalq birlik Azərbaycandakı vəziyyətdən xəbərdardır. Ən azı son dövrlərdə keçirilən seçkilərdə yol verilən saxtakarlıqların miqyası elə ATƏT-in hesabatında 58 faiz olaraq göstərilib. Yəni bu baxımdan bizim onlara xüsusi məlumat verməyimizə ehtiyac yoxdur. Çünki istər dünyanın aparıcı ölkələrinin, istər Azərbaycanın daxil olduğu beynəlxalq qurumların Azərbaycandakı siyasi vəziyyət, qüvvələr nisbəti, seçkiqabağı şərait və digər məsələlər barədə kifayət qədər məlumatı var. Təbii ki, bəzi dəqiqləşdirmələr aparılır və beynəlxalq qurumların, o cümlədən Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələrini siyasi partiyaların 1 noyabr seçkiləri ilə əlaqədar mövqeyi maraqlandırır. Biz də ilk növbədə ölkədə seçkiqabağı demokratik şəraitin yaradılması istiqamətində atılacaq birinci addım kimi siyasi məhbusların azadlığa buraxılmasını qeyd edirik. Bununla yanaşı, ölkədə mətbuat üzərinə basqıla-



ra son qoyulması, televiziya kanallarında müxalifətə yer verilməsi, sərbəst toplaşma azadlığı hüququnun bərpa olunması və digər şərtlər təbii ki, ölkədə seçkiqabağı demokratik şəraitin yaradılmasına başlanğıc kimi dəyərləndirilə bilər. Eyni zamanda qanunvericilik sahəsində bir sıra dəyişiklikləri həyata keçirmək lazımdır. İlk növbədə seçki komissiyalarının tərkibi dəyişdirilməlidir. Seçki komissiyaları hakimiyyətin monopolyasından çıxarılmalıdır, seçki komissiyalarında iddiaçı tərəflərin bərabər təmsilçiliyi təmin olunmalıdır. Yalnız bu yolla keçirilən seçkilərdə səs saymanı düzgün həyata keçirmək mümkündür. Eyni zamanda seçkilərin azad və ədalətliliyini təmin eləyən başlıca məsələlərdən biri bərabərhüquqlu siyasi rəqabət şəraiti, həmçinin bərabərhüquqlu təbliğat imkanlarının təmin olunmasıdır ki, bu da hazırda Azərbaycanda mövcud deyil. Bütün bu məsələlər bizim həm beynəlxalq təşkilatlarla, həm də diplomatik korpusun nümayəndələri ilə söhbətlərimizdə müzakirə olunur".

**Bəzi beynəlxalq təşkilatlar parlament seçkilərinə müşahidə missiyası göndərməyəcəklərini bəyan ediblər. Məsələn, Avropa Parlamenti Bakı ilə münasibətlərinin soyuqlaşmasından sonra belə bir mövqeni bəyan edib. ATƏT-in seçkini müşahidə edib-etməyəcəyi barədə qurumun nümayəndələri ilə görüşünüzdən sonra bir aydınlıq yarandımı? Beynəlxalq təşkilatların seçkini müşahidə eləməsi, yoxsa hakimiyyətlə münasibətlərin pisləşməsi səbəbindən müşahidəçilikdən imtina etmələri demokratiyanın xeyrinədir?**

**Bu sualları isə Müsavat başqanı belə cavablandırdı:** "Beynəlxalq qurumların, o cümlədən dünya birliyi dövlətlərinin Azərbaycanda demokratiyanın inkişafı istiqamətində fəaliyyətini durdurması Azərbaycanın maraqlarına uyğun deyil. Nümunə üçün ABŞ-ın Azərbaycanda fəaliyyət göstərən iki institutunun Azərbaycandan çıxarılması məsələsini diqqətə çatdırmaq istəyirəm. Biz burada həm Beynəlxalq Respublikaçılar İnstitutunun, eyni zamanda Beynəlxalq Demokratlar İnstitutunun fəaliyyətindən tam şəkildə razı deyildik. Ancaq müəyyən fəallıq var idi, siyasi partiyalar arasında müzakirələrin aparılması, seçki kampaniyası dövründə müəyyən tədbirlər həyata keçirilməsi, hər halda, ölkədə az da olsa demokratiya cücərtilərinin yaranmasına xidmət edirdi. Hazırda həmin institutlar Azərbaycanı tərk edib və hesab etmirəm ki, bununla Azərbaycanda demokratiyanın vəziyyəti daha da yaxşılaşıb. Eləcə də beynəlxalq qurumlar seçkiləri müşahidə etməsə, beynəlxalq müşahidəçilər gəlməsə, seçki prosesi diqqət mərkəzində saxlanmasa, hesab etmirəm ki, bu, avtomatik olaraq Azərbaycanda vəziyyətin dəyişməsi ilə nəticələnəcək".

❑ **Etibar SEYİDAĞA**

# Azərbaycanda kasıblaşma dövrünün başlamasına iki fərqli baxış

**İqtisadçı ekspert Qubad İbadoğlu mətbuata açıqlamasında Azərbaycanda dövlətin və əhalinin kasıblaşması dövrünün başladığını bildirib. O bunun göstəricisi kimi Azərbaycan üçün əhəmiyyətli olan iki məhsulun - neft, qazın ixracının, avtomobilin isə idxalının azalmasını göstərib.**

**Ancaq iqtisadçı ekspert Vüqar Bayramov** Q.İbadoğlunun dedikləri ilə razılaşmadığını və Azərbaycan dövlətinin və xalqının kasıblaşma dövrünün başlamadığını dedi: "Ölkəyə daxil olan vəsaitlərin həcmində azalmalar var. Nəzərə alsaq ki, ölkə prezidenti də ixracatdan daha az vəsait qazandığımızı bildirmişdi. Bu da dünya bazarında qiymətin aşağı düşməsi ilə bağlıdır. Dünya bazarında qiymətin aşağı düşməsi praktiki olaraq ölkəyə daxil olan vəsaitlərin azalmasına gətirib çıxarıb. Amma mən düşünmürəm ki, Azərbaycan dövlətinin və əhalinin kasıblama dövrü başlayıb. Çünki bunu göstərən faktorlar, eyni zamanda adambaşına düşən ümumi daxili məhsul, milli gəlirin həcmi Azərbaycanda hələ ki sözügedən makroiqtisadi göstəricilərin kəskin pisləşməsi qeydə alınmayıb. Dövlətin kasıblamasından deyil, ölkəyə daxil olan vəsaitlərin azalmasından söhbət gedə bilər. Azərbaycan ixracatının 95 faizini strateji məhsullar təşkil edir və təbii ki, neftin qiyməti azaldıqca ixrac edilən neftin həcmi dəyişməsə belə, ölkəyə daxil olan vəsaitlərin həcmində azalmalar müşahidə edilir. Bu baxımdan təbii ki, Azərbaycan dövləti və hökuməti çalışmalıdır ki, neftin dünya bazarında qiymətinin aşağı düşməsin-



**Vüqar Bayramov:** "Bunu göstərən faktorlar hələ ki qeydə alınmayıb"



**Elman Fəttah:** "Azərbaycan dərin iqtisadi böhran içərisindədir"

dən iqtisadiyyata dəyən təsirləri kompensasiya etsin. Bunun üçün ölkəyə daxil olan vəsaitlərin həcminin azalmasını kompensasiya etmək üçün alternativ qeyri-neft sektorunu inkişaf etdirmək lazımdır. Bu da təbii ki, ixracın sürətləndirilməsini və davam etməsini tələb edir. Xüsusən bazara çıxış imkanlarının artırılması, həmçinin yalnız dövlət tərəfindən deyil, banklar və digər maliyyə qurumları tərəfindən dəstəklənməsini vacib edir".

**İqtisadçı ekspert Azərbaycan da daxil olmaqla, region ölkələrinin yeni bir mərhələyə qədəm qoyduğunu bildirdi:** "Neftin dünya bazarında qiymətinin aşağı düşməsi, xüsusən də son proseslər göstərir ki, bu hal müvəqqəti xarakter daşımır. Belə olan halda Azərbaycan, eləcə də digər neft ölkələri iqtisadiyyata daha fərqli və innovativ yanaşmalıdır. Azərbaycan rezervlərinin çoxluğu və xaricə borc asılılığının az olması ölkəyə kömək etsə belə, indiki halda daha məqsədəuyğundur ki, qeyri-neft sektorundan əldə edilən gəlirlərin artırılması hesabına neft sektorunun neft məhsullarına ixracatından yaranan fərqi azaltmaq mümkün olsun. Ona görə də vəziyyət qorxulu deyil".

**Maraqlıdır, bəs bu haqda siyasətçilər nə düşünür? Müsavat Partiyası başqanının müavini Elman Fəttah ölkədə kasıblığın ciddi problemə çevrildiyini dedi:** "Azərbaycan dərin iqtisadi böhran içərisindədir. Bütün ölkə iqtisadiyyatını neft pullarına etibar etmiş hökumətin neft strategiyası iflasa uğrayıb. Problemli kreditlərin kütləvi hal alması, insanların bank borclarını ödəyə bilməməsi və bununla faciəvi hadisələrin, intiharların intensiv xarakter daşımasının özü göstərir ki, əhalinin maddi vəziyyəti həddindən artıq ağırdır. Hazırda ölkədə kasıblıq həqiqətən də ciddi bir problemə çevrilib".

**AXP sədri Pənah Hüseyn məlum devalvasiyanın iqtisadi geriləməyə və əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olduğunu dedi:** "Bu, inkar olunması mümkün olmayan bir prosesdir. Bunu kasıblaşma kimi də ifadə etmək olar. Çünki əhalinin böyük əksəriyyəti formal iqtisadi göstəricilərə görə beynəlxalq təşkilatların rəsmən müəyyən etdiyi kasıblıq həddində yaşayır. Bunun 5-10 faiz aşağı düşməsi təbii ki, kasıblığın sayının artmasına səbəb olur. Həyat səviyyəsinin aşağı düşməsi iqtisadiyyatda sosial baxımdan kasıblıq kimi qeyd olunan həddən aşağı yaşayan əhalinin də kasıblıq həddinə düşməsinə səbəb olur. Kasıblıq 5-6 faiz göstərilir. Amma son dövrlərdə dediyimiz bu proseslərdən sonra bu faiz yüksəlməyə bilməz. Çünki onu kompensasiya edən hansısa sosial tədbirlər görülməyib".

❑ **Günel MANAFLI**



# Stalinin qızı üçün ən çətin sual nə idi?

Hüseynbala SƏLİMOV

**Məndən soruşsaydılar ki, cəhənnəm haradadır, düşünmədən deyərdim ki, o, Suriyadadır. Burada indi hamı döyüşür və demək olar ki, heç kim də bilmir ki, kimə qarşı vuruşur, necə deyərlər, ara qarışıb, məssəb itib...**

Ən maraqlısı isə budur ki, bu yaxınlarda Moskva da Suriya müxalifətinin daha bir radikal qanadının təmsilçilərini qəbul etdi...

Düzdür, hamı əsas hədəf kimi guya İŞİD-i görür. Amma Bəşər Əsədin də artıq keçmiş olduğunu heç kim inkar etmir...

Çox güman ki, İŞİD ram ediləndən sonra B. Əsədin hakimiyyətdən getməsi, necə deyərlər, bir texniki məsələ olacaq. Amma İŞİD ram ediləcəkmi? Buna tezliklə nail olmaq mümkün olacaqmı? Doğrusu, hamı kimi biz də bu sualların cavabını bilmirik...

Bir vaxt Yaxın Şərqdən danışmaq siyasətdən baş çıxarmağın göstəricisi kimi başa düşülürdü. İndisə Yaxın Şərqdən danışılası bir şey qalmayıb...

Nə gizlədək, "ərəb baharları" bizim ümidlərimizi doğrultmadı. Görünür, lap əvvəldən bilmək lazım imiş ki, səhrada baharlar da özünəməxsus olur, burada əsl baharı, gül-çiçəyi gözləməyə dəyməz...

Bilirsiniz, ən qəribəsi nədir? Bu yaxınlarda bir tanışım dincəlmək üçün bir neçə günlüyə Gürcüstana getmişdi. Deyir ki, təmizlikdir, amma aclıqdır, elə bil ölkə təzəcə müharibədən çıxıb, heç bir yerdə tikinti-filan gözə çarpmır...

Mən doğrusu, Gürcüstanda olmamışam. Amma başqalarından eşitdiklərim də elə bu sözləri təsdiqləyir...

Səbəb nədir? Odur ki, Gürcüstanın resursu yoxdur və bu ölkə nə qədər siyasi fəallıq göstərsə də, adamlar sayıq olsalar da, problemlər həll olunmur, ölkə çiçəklənə bilmir...

Amma Allah Yaxın Şərqə hər şey verib, bircə insanlarına ağıl verməyib. Ona görə də burada da heç nə alınmır...

Bəzisi ərəb passionarlığının artmasından yazır. Amma Allah kəssin belə passionarlığı... Bir passionarlıq ki, kreativliyə xidmət etmir, qurub-yaratmağa gətirib çıxarmır, o, kimə və nəyə lazımdır?..

Yazının əvvəlində Moskvanın B.Əsəddən imtina etməsi ehtimalını dilə gətirdik. Nə demək olar? Əlbəttə ki, imtina edəcək, bunun da geci - tezi var, necə ki, bir vaxt hamı soruşurdu ki, görən, Moskva Qəzzafidən imtina edəcəkmi? Bəli, o vaxt prezident olan D.Medvedyev ondan imtina etdi. İndi də V.Putin çalışır ki, onun haqqında da "Bəşər Əsəddən imtina etdi!" sözlərini deməsinlər. Həm də bir az İrandan ehtiyat edir, çünki bu ölkə hələ də Əsədi müdafiə edir...

Amma gec-tez imtina etməli olacaq. Başqa yol yoxdur. Hələ bir neçə ay, bəlkə də bir il bundan əvvəl idarə olunan xaoslar haqqında yazmışdıq. İndi bu ölkədə də - Suriyada da idarə olunan xaos bərqərar olub...

Təsəvvür edin, ABŞ və ona dəstək verən koalisiya Suriyada B.Əsədə və İŞİD-ə qarşı vuruşur. Türkiyə PKK-ya və İŞİD-ə qarşı vuruşur, B.Əsədi də yaddan çıxarmır. Rusiya hələlik səylərin İŞİD-ə qarşı birləşdirilməsinə çalışır, amma o da belə hesab edir ki, Əsəd artıq oynanılmış kartdır...

Beləcə, dövrə qapanır, cəhənnəmin konturları cızılır. Ən böyük günah kimdədir? Birmənalı şəkildə demək olar ki, B.Əsəddə və onun komandasında.

Ona görə ki, siyasətçi hakimiyyətə gəldiyi kimi, getməyi də bacarmalıdır. Bəzisi deyirdi ki, Əsəd ona görə hakimiyyəti vermirdi ki, onun getməyə yeri yox idi. Amma biz buna inanmırıq. Hər halda, ərəb ölkələrindən biri onu qəbul edərdi... Həm də bir ölkəni nə qədər fövqəladə vəziyyət şəraitində idarə etmək olar?..

Çox təəssüf ki, diktatorlar reallıq hissini itirirlər. Onlara elə gəlir ki, hakimiyyətləri əbədi olacaq. Amma dünyada əbədi heç nə yoxdur, hətta onun - dünyanın özü belə əbədi deyil...

Nədən diktatorlar uzağı görmürlər? Halbuki onların hamısını "böyük strateqlər" adlandırırlar! Bilmirəm. Doğrusu, bu sualın cavabını indi heç kim bilmir...

Bəzən diktatorlarda da "Məndən sovuşdu!" psixologiyasını təzahürlərini hiss etmək olur. Baxın. Hafiz Əsəd Suriyanı otuz il idarə etdi. Sonra da hakimiyyəti oğluna ötürdü. Amma öğlu həm özünün, həm də atasının əməlinə cavab verməli oldu. Hətta M.Qəzzafinin, S.Hüseynin nəinki uşaqları, ən yaxın qohumları da onların əməllərinin hesabını verməli oldular...

İ.Stalini kimsə xoşbəxt diktator hesab edə bilərdi. Amma onun uşaqları xoşbəxtlik nə olduğunu bilmədilər. Qızı o vaxt yazırdı ki, onun üçün ən çətin iş "Kimin qızısınız" sualına cavab vermək idi...

# "Siyahını açıqlamaq mümkün olmadı"

## Pənah Hüseyn: "Siyasi qərar olsa, MSK və aşağı seçki komissiyaları tərəfindən yəqin ki, problem olmaz"

**8 partiyanın təmsil olunduğu "Azadlıq 2015" seçki bloku 1 noyabr parlament seçkilərində iştirak edəcək namizədlərinin siyahısını avqustun 12-də açıqlayacağını bəyan etsə də siyahı hələ də açıqlanmayıb. Blokun siyahını hansı səbəbdən açıqlamadığı, seçkilərə hazırlıq və digər məsələlərlə bağlı suallara aydınlıq gətirmək üçün Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynlə söhbətləşdik. P.Hüseyn siyahının açıqlanmamasının səbəbləri barədə danışdı:**

- "Azadlıq-2015" seçki blokunun deputatlığa namizədlər siyahısında 80-ə yaxın adam var idi. Sonuncu iclasda onlardan 59 nəfərinin hansı dairədən namizəd olacaqları dəqiqləşdi. Qərara gəldik ki, hələlik siyahı tam hazır olmadığı üçün elan eləməyək. Ümumiyyətlə partiyalar tərəfindən 90-a yaxın dairəyə namizədlər təklif edilib. Bəzi dairələrdə bloka daxil olan partiyalardan bir neçə iddiaçı var. Bəzilərində hələ irəli sürülən namizədlər barədə bütün suallar aydın deyil. Ona görə də ötən iclasda siyahını açıqlamaq mümkün olmadı. Yəqin ki, yaxın günlərdə bu məsələlər həllini tapacaq, hazırda isə proses davam edir. Ümumiyyətlə, bu proses blok rəsmə qeydə alınıb siyahı Mərkəzi Seçki Komissiyasına təqdim olunanadək davam edəcək. Yəni gedişatda dəyişikliklər də mümkündür.

***- Blokdakı partiyaların sədrlərinin dairələri bəllidirmi? Partiya sədrlərinin də dairələrində bir neçə iddiaçı olanı varmı?***

- Bloka daxil olan partiyaların sədrlərinin yarıdan çoxunun namizəd olacaqları dairələr dəqiqləşdirilib. Böyük ehtimalla mənim seçkidə namizəd olacağım dairə 63 saylı Sabirabad seçki dairəsidir. Mən 2005-2010-cu illərdə həmin dairədən deputat olmuşam. Ümumiyyətlə, 63, 64, 65 saylı dairələrdən AXP-nin üzvləri namizəddirlər, bu istiqamətdə iş aparırıq. Partiyadan Qiyas Sadıqov və Məzahir İsrailov namizədliklərini həmin dairələrdən irəli sürəcəklər. Biz indi öyrənirik ki, hansı dairədən kimin şansı çox ola bilər. Dairələrin tam müəyyənləşməməsi də problemdir. Digər partiyalarda bu cür problemlər qalmaqda davam edir. Məsələn, KXCP sədri Mirmahmud Mirəlioğlu böyük ehtimalla Sumqayıtdakı dairələrin birindən namizəd olacaq. VİP sədri Əli Əliyev dairəni hələ dəqiqləşdirməyib. Azadlıq Partiyasının sədri Əhməd Orucun namizəd olacağı dairə isə dəqiqləşdirilib. Əhməd Oruc 18 saylı Nərimanov-Nizami seçki dairəsindən namizəd olacaq. 69 saylı dairədən isə Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli namizədliyini irəli sürəcəyini bildirib. Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər isə hələ yekun qərarını verməyib. AzDP qanunsuz olaraq dövlət qeydiyyatına alınmır. Ona görə də həmin partiyanın namizədlərinin seçkidə iştirakı məsələsində müəyyən problem var. Onlar əsas diqqəti qeydiyyat məsələsinə yönəldiblər. Liberal Demokrat Partiyasının sədri Fuad Əliyevin dairəsi də məlumdur. Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev isə 9 saylı Binəqədi Seçki Dairəsindən namizəd olacaq.

***- Ümumiyyətlə, müxalifət partiyalarının rəhbərliyinə daxil olan şəxslərin əksəriyyəti sanki hakim YAP-ın namizədlərinin açıqlanmasını, hakim partiyanın hansı dairədən kimin namizədliyini irəli sürəcəyini gözləyirlər. Sizin blokda da belə bir gözləmə varmı?***

- "Azadlıq 2015"də belə bir gözləmə yoxdur. Bayaq mən qeyd etdim ki, artıq bloka daxil olan partiyaların yarıdan çoxunun sədrləri namizədliklərini irəli sürəcəkləri dairələri dəqiqləşdiriblər. Halbuki hələ YAP-ın namizədlər siyahısı açıqlanmayıb. Digər müxalif partiyalar barəsində isə mənim hər hansı fikir bildirməyim düzgün olmazdı. Hər partiyanın, siyasətçinin müxtəlif seçki taktikalarının olması normaldır.



**"Böyük ehtimalla mənim seçkidə namizəd olacağım dairə 63 saylı Sabirabad seçki dairəsidir"**

***- Bloka daxil olmayan müxalif partiyaların nüfuzlu namizədləri ilə dairələrdə rəqib olmamaq üçün məsləhətləşmə, danışıqlar aparılırmı?***

- Çox təəssüf ki, bu istiqamətdə bizim təkliflərimizə, çağırışlarımıza baxmayaraq lazımi addımlar atılmır. Biz ümumiyyətlə seçki ilə bağlı siyasi partiyaların bir geniş toplantısının olmasını təklif etmişik. Hətta mən təklif eləmişdim ki, istər iqtidar, iqtidaryönlü partiyaların, istər müxalifət partiyalarının birlikdə seçki ilə bağlı toplantısı olsun. Əvvəl təklif etmişdik və indi də bu təklifimiz qüvvəsindədir ki, siyasi partiyalar seçkiqabağı vəziyyəti hakimiyyətlə müzakirə etsin. Biz bunu artıq bir neçə dəfə keçirilmiş Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənovla siyasi partiyaların görüşü çərçivəsində həyata keçirməyi də mümkün saydığımızı bildirmişik. Lakin nə iqtidar hələlik bu məsələdə meylli görünmür, nə də çox təəssüf ki, siyasi partiyaların müəyyən bir hissəsi maraqlı görünmürlər. Ola bilsin biz bu çağırışı bu həftə yenidən təzələyək. Ən azı seçkiqabağı vəziyyətə qiymət verilməsi, o cümlədən namizədlərin irəli sürülməsi ilə bağlı siyasi partiyalar arasında hansı razılaşmalara gəlməyin mümkünlüyü müzakirə edilə bilər. Seçkilərin müşahidəsinin təşkili üçün də belə müzakirələr əhəmiyyət daşıyır. Siyasi partiyalar seçkilərin demokratik keçirilməsində maraqlı olmalıdır. Maraqlıdırlarsa, heç olmasa müşahidə məsələlərində resurslar birləşdirilməlidir. Təəssüf ki, siyasi partiyalar bu istiqamətdə həvəsli görünmürlər. Biz çağırışı yenidən edəcəyik və bir tədbiri təyin edib keçirməyə çalışacağıq.

***- Hakimiyyətlə siyasi partiyaların sonuncu görüşündən 3 ay keçib. Növbəti görüş nə vaxt olacaq? Bunun üçün hakimiyyətdən hansısa təklif varmı?***

- Mən mediadan oxumuşdum ki, Əli Həsənov hakimiyyətin seçki mövzusunu müzakirə etməyə hazır olmadığını bildirib. Amma artıq o zamandan üç ay keçib və seçki ərəfəsidir. Seçkilərdə tərəf olan siyasi partiyalarla müzakirələr nə üçün aparılmasın? Müzakirələr aparılmalıdır. Hakimiyyətin normal seçkilər keçirib-keçirməməsi barədə mövqeyinə də qiymət verilməsi üçün bu cür müzakirələr maraqlı görünür. Əli Həsənovla növbəti görüşün nə vaxt olacağı, bunun üçün hakimiyyətdən hər hansı təklif gəldiyi barədə məndə informasiya yoxdur.

***- O zaman belə qənaətə gəlmək olarmı ki, siyasi partiyalarla dialoqun hələ ki keçirilməməsi hakimiyyətin müxalifətdən gələn həmin təklifi mövzu olaraq qəbul etməməsi ilə bağlıdır?***

- Bu sual hakimiyyətə ünvanlansa daha dolğun cavab almaq olar.

***- Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyaları artıq seçki hazırlıqlarına başlayıblar. Müxalifət partiyaları seçki komissiyalarında hansısa şəkildə təmsil oluna biləcəklərmi, seçki məntəqələrini müşahidəçilərlə təmin etmək mümkün olacaqmı?***

- Konkret olaraq bizim seçki bloku seçki komissiyalarına məşvərətçi səs hüquqlu nümayəndələr, səlahiyyətli nümayəndələr, müşahidəçilər göndərəcək. Hazırda siyahıları hazırlayırıq. Qanun məşvərətçi səslə seçki komissiyalarında təmsil olunmaq hüququnu verir, eyni zamanda namizədlərin, siyasi partiya və partiyalar blokunun səlahiyyətli nümayəndələrinin seçki komissiyalarında olmasına qanunda yol verilir, həmçinin müşahidəçilik də Seçki Məcəlləsində formal olaraq əksini tapıb. Amma real olaraq effektiv müşahidənin keçirilməsinə mane olunur. Burada isə ən ciddi şəkildə MSK-nın təlimatları rol oynayır. Məsələn, müşahidəçiləri kənarda əyləşdirirlər və normal müşahidə aparmaq hüququndan məhrum edirlər. Bunun üçün də MSK-nın qəbul etdiyi təlimatları əsas göstərirlər. Məşvərətçi səs hüquqlu komissiya üzvlərini də MSK-nın təlimatları ilə normal müşahidəçilikdən, prosesdən faktiki məhrum edirlər. Seçkinin demokratikliyinə xələl gətirən işlərin icraçısı rolunda seçki komissiyaları qalmaqdadırlar. Hazırkı Seçki Məcəlləsi demokratik sayılmasa da seçkilər onun ruhuna, hərfinə uyğun şəkildə olsa fundamental dəyişiklik olmasa da irəliyə doğru addımlar olar. Bunu da etmirlər. Ona görə də bu məsələnin də müzakirəsi zəruridir. Çünki artıq seçki yaxınlaşır və çətin ki, bundan sonra Seçki Məcəlləsinə dəyişiklik edilsin. Mövcud qanunun özünün çərçivəsində xeyli resurslar var ki, bu resursların hərəkətə keçməsi siyasi iradədən və MSK-nın qərarlarından asılıdır. Bu məsələlər istiqamətində müəyyən tədbirlər görülə bilər. Siyasi qərar olsa, MSK və aşağı seçki komissiyaları tərəfindən yəqin ki, problem olmaz.

❑ Etibar SEYİDAĞA

**Seçkilərə start verilməsinə az bir müddət qalıb. Seçkiyə ciddi hazırlaşan təşkilatlardan biri də Ümid Partiyasıdır. Namizədliyi partiya tərəfindən 4o saylı Gəncə II seçki dairəsindən irəli sürüləcək Ümid Partiyası Gəncə şəhər şöbəsinin sədri Salman İmanlı parlament seçkilərinə hazırlıq, seçki mühiti ilə bağlı partiyanın mətbuat xidmətinin suallarını cavablandırıb. Müsahibəni oxuculara təqdim edirik.**

# "İnanıram ki, Azərbaycan insanı buna layiqdir, bunu bacaracaq"

## Salman İmanlı: "Namizədlər bütün ümidlərini beynəlxalq müşahidəçilərin yekun rəyinə bağlamamalıdırlar"

***- Salman bəy, bu il keçiriləcək parlament seçkilərinə start verilməsinə 10 gündən bir az çox vaxt qaldı. Bir namizəd kimi hazırkı seçki mühitini və seçkilərə hazırlıqları necə qiymətləndirirsiniz?***

- Mənim 40 saylı Gəncə (2-ci) seçki dairəsindən namizədliyimin irəli sürülməsi ilə bağlı Ümid Partiyası tərəfindən qərar var. Siyahı artıq mətbuatda dərc olunub. Məlumat üçün bildirim ki, Gəncədə 4 seçki dairəsi var ki, onların hər birindən partiyamızın namizədləri olacaq. Belə ki, 37 saylı dairədən partiyamızın gənc və perspektivli üzvü Emin Abbasovun, 38 saylı dairədən sosial şəbəkələrdə, ictimai siyasi aləmdə çox fəallığı ilə seçilən gənc xanım dostumuz Südabə Cavadzadənin, 39 saylı dairədən bundan əvvəlki seçkilərdə də namizəd olmuş təcrübəli insan, Qarabağ savaşında sağlamlığını itirmiş, ehtiyatda olan zabit, Qarabağ müharibəsi əlili, ixtisasca mühəndis Razim Quliyevin namizədliyi irəli sürüləcək. Ümid Partiyasının Gəncə təşkilatı kimi seçkilərə çox önəm verməyimizin, ona ciddi hazırlaşmağımızın nəticəsidir ki, bu gün 4 dairədən namizədimiz var.

Seçki mühitinin hansı səviyyədə olması ilə bağlı isə zaman-zaman siyasilərin və ekspertlərin bildirdiklərindən fərqli Gəncədə elədə ciddi bir istisna yoxdur. Vəziyyət eynidir. Bunun obyektiv və subyektiv səbəbləri barədə çox deyilib. Əlavə onu qeyd edə bilərəm ki, biz öncədən vəziyyəti araşdıraraq, hər şeyi nəzərə alaraq 4 namizədlə seçkiyə qatılmaq qərarına gəlmişik. Namizədimiz olan dairələrin hamısında seçiciləri daha da aktiv olmağa, prosesə qoşmağa çalışırıq.

***- Məlumatınız var ki, seçkilərdə beynəlxalq müşahidəçiliyin həyata keçirilməsi üçün ATƏT və Avropa Birliyi ölkələrinə Azərbaycan hökuməti tərəfindən dəvət göndərilib. Son günlər hətta həmin qurumlardan olan nümayəndələr Azərbaycanda olublar. Sizcə, həmin qurumların müşahidəçiliyi ölkədə seçkilərin şəffaf və demokratik keçirilməsinə yardımcı ola bilər, yoxsa iqtidarın özü siyasi iradə göstərərək demokratik seçkilərin keçirilməsində maraqlı olmalıdır?***

- Beynəlxalq müşahidəçilər ölkəmizdə keçirilən əksər seçkilərdə olublar və bundan sonrada hesab edirəm ki olacaqlar. Bu beynəlxalq aləmin Azərbaycana həm iqtisadi -siyasi marağının həm də seçkilərin həqiqətən də demokratik keçirilməsinə olan istəklərinin göstəricisidir. Hesab edirəm ki, həm demokratik düşərgə təmsilçiləri, o cümlədən Ümid Partiyasının namizədləri bütün ümidlərini beynəlxalq müşahidəçilərin yekun rəyinə bağlamamalıdırlar. Siz yaxşı bilirsiniz ki, o müşahidəçilər seçkilər zamanı çox məhdud sayda təmsil olunurlar. Yeni Azərbaycanda 5000-dən artıq, o cümlədən Gəncədə 110-a yaxın seçki məntəqəsi var. Yeni beynəlxalq müşahidəçilərin bütün məntəqələrdə təmsil olunmaq imkanı yoxdur.

Ölkədə seçkilərin taleyini məhz Azərbaycan seçicisi həll etməlidir. Seçki mühitinin yoxluğu, seçkilərin demokratik keçirilməməsi isə tamam başqa mövzudur. Seçicini seçkiyə gətirmək, seçici səslərinin qorunması, seçki saxtakarlığının qarşısını almaq isə məhz biz müxalifətin öhdəsinə düşür. Biz bunu bacarsaq, uğur qazana biləcəyik, əks halda, həmişəki kimi məğlub olaraq bunun səbəblərini bir-birimizdə görəcəyik.



***- Dediklərinizdən belə anlaşılır ki, bu dəfə seçkilərə daha ciddi hazırlaşmısız. Həm də seçkilərin nisbətən şəffaf keçəcəyinə sizdə əminlik yaranıb. Belə olacağı təqdirdə qalib gələcəyinə ümid edirsinizmi?***

- Hər şey fəaliyyətimizdən çox asılıdır. Təbii ki, "Ümid"çi olaraq çox ümidliyəm. Atalarımızın gözəl bir kəlamı var, "İşə ümidlə başlamaq onun yarısını başa vurmaq deməkdir". Onu deyim ki, bu inam məndə hələ 2010-cu ildə keçirilən parlament seçkilərindən dərhal sonra yaranıb. Həmin seçkilərdə mən *(qeyri təvazökarlıq çıxmasın)* 4 mindən artıq səs toplamışdım. Mənim qalib gəlməyimə baxmayaraq haqqım oğurlandı. Sonradan Avropa İnsan Hüquqları məhkəməsinə müraciət etdim. Hazırda Avropa Məhkəməsində işə baxılır. Yazışmalardan o qənaətdəyəm ki, Avropa Məhkəməsi mənim hüquqlarımın pozulmasına dair qərar çıxaracaq.

***- Salman bəy, həyata keçirdiyiniz hazırlıqları bizdə bəyənir və təqdir edirik. Həmçinin sizə uğurlar diləyirik. Ancaq bir məsələyə dair sizin münasibətinizi bimək istərdik. Hesab edək ki, bu cür hazırlıqla siz seçkidə qalib gəldiniz. Bu o cür hesab olunacaqmı ki, Azərbaycanda seçkilər demokratik keçirilir. Və yaxud hər bir namizəd siz irəli sürdüyünüz seçki texnologiyasından istifadə etsə uğur qazana bilərmi?***

- Mən şəxsinə və qələminə çox hörmət etdiyim, İsmayıllı hadisələrinə görə hal-hazırda həbsdə olan "Yeni Müsavat" qəzetinin köşə yazarı Tofiq Yaqublunun bir müddət öncə həmin qəzetdə bir yazısını oxudum. Yeri gəlmişkən mən Tofiq bəyin tezliklə azadlığa çıxaraq ailəsinə qovuşmasını arzulayıram. Tofiq bəyin həmin yazıdakı məlum fikirləri məndə daima önəmli hesab etmişəm. Tofiq bəy həbsdən yazmışdı ki, biz nə zaman demokratiya uğrunda mübarizə aparmışıq ki qalib gələk, aparmamışıq axı?

Açığı etiraf etmək lazımdır ki, hər seçkidə yalnız siyasi partiya liderləri və öndə olan funksionerləri namizədliklərini irəli sürüblər. Həm də əsasən mərkəzdən, yəni Bakıda yerləşən seçki dairələrindən, amma ölkə təkcə Bakıdanmı ibarətdir??? Regionlardan iri şəhərlərdən isə siyasilərin 3-cü, 5-ci dərəcəli üzvləri ya namizəd olublar, ya da heç bütün dairələr namizədliklərlə təmin olunmayıb. Əyalətlərdən irəli sürülən namizədlər sanki imitasiya xatirinə seçkilərdə iştirak edirlər. Ən ağrılısı da odur ki, bu namizədlər heç öz uğurlarına da ümid etmirlər. Bəri başdan məğlubiyyətlə barışırlar. Sonda üz tuturlar beynəlxalq təşkilatlara ki, bəs seçkilər saxtalaşdırılıb. Azərbaycanda seçkilər zamanı saxtakarlıq olduğunu elan etməklə vəzifələrini bitmiş hesab edirlər. Ölkə seçicisini bizim əvəzimizdən seçkiyə gətirmək beynəlxalq qurumların işi deyil, seçicini məntəqəyə hansı yolla dəvət etmək, onu öz səsinin əhəmiyyətinə inandırmaq bizim işimizdir. Hesab edək ki, Bakı dairələrindən bütün müxalifətçilər qalib gəldi, bəs regiondakı digər dairələr? Axı regiondakı dairələr ölkə üzrə 80%-ə yaxın təşkil edir. Ümid Partiyası olaraq biz ölkənin bütün regionlarında təşkilatlanmışıq. Ancaq bu o demək deyil ki, bizim namizədlər bütün dairələrdə qalib gəlmək gücündədir. Partiyamızın bu prosesə qoşulmaqda vəzifəsi həm də ölkədə seçicini yalnız seçki yolu ilə uğur qazanmasına inandırmaqdır. Müxalifətçi, müstəqil, azad düşüncəli namizəd olacaq həmvətənlərim və dostlarım da bilsin ki, əgər seçkidə uğur qazanmaq istəyiriksə çalışmalıyıq və qələbəyə ümid etməliyik, yoxsa formal olaraq namizəd olub prosesə qoşulmağın tərəfində deyiləm.

***- Builki seçkilərdə uğur qazansanız bu kimin uğuru hesab ediləcək, sizin, partiyanın, yoxsa 40 saylı dairənin ərazisində yaşayan seçicilərin?***

- Mən seçkilərdə namizəd olacaq hər bir şəxsə siyasi baxışlardan və düşüncələrindən asılı olmayaraq uğur arzulayıram. Ümid edirəm ki, builki seçkiləri demokratik keçirməklə, həm də ölkəmizə qarşı olan haqlı-haqsız təzyiqlərə layiqli cavab vermək şansımız ola bilər. İnanıram ki, Azərbaycan insanı buna layiqdir, bunu bacaracaq. Bunun 40 saylı dairə ərazisində yaşayan insanlarla tez-tez olan təmaslarımda da bir daha şahidi olmuşam. Seçkidə uğur qazanaramsa, bu, həm mənim, həm partiyamızın, həm də daha çox seçki dairəsində yaşayan əhalinin - ümumilikdə isə Gəncə əhalisinin uğuru hesab edəcəyəm.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# İqbal Ağazadə səfirlə görüşdü



**Ümid Partiyasının mərkəzi qərargahında partiyanın sədri, millət vəkili iqbal Ağazadə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri cənab İrfan Siddiqi ilə görüşüb. Ümid Partiyası sədrinin birinci müavini Ənvər Ağazadə və sədrin beynəlxalq əlaqələr üzrə müavini Ramin Hacılının da iştirak etdiyi görüşdə region və ölkədəki ictimai-siyasi vəziyyət, qarşıdan gələn parlament seçkiləri, partiyanın seçkilərə hazırlıqları, Ermənistan-Azərbaycan münaqişəsi müzakirə olunub.**

❑ **Ümid Partiyasının mətbuat xidməti**

YENİ MÜSAVAT
N 180 (6208) 18 avqust 2015

**Uzun illərdən sonra nəhayət ki, Göygöl Milli Parkına vətəndaşların girişinə icazə verildi. Gözlənildiyi kimi, Göygölün ətrafında gəzintiyə çıxmaq istəyənlərin sayı-hesabı yoxdur. Ötən şənbə-bazar günlərini bu füsunkar ərazidə keçirmək və reportaj hazırlamaq üçün Göygölə üz tutduq...**
**Bakıdan Göygölə təxminən 450 kilometrlik yol uzanır. Bu göl Gəncə şəhərinin Kəpəz rayonunda, 1556 m hündürlükdə yerləşir. Su səthi 80 hektar, ən dərin yeri 95 metrdir. Göl istiqamətinə uzanan yol meşələrin içindən keçir. Azərbaycanın ən mənzərəli yerlərindən biri olan Göygölü haqlı olaraq Azərbaycanın incisi adlandırırlar. Bu gözəlliyə mehman olmaq arzusunda olanlara çəkinmədən "yol yorğunluqlarına qatlaşmağa dəyər" söyləyə bilərik.**



# Zəlzələnin yaratdığı möcüzə - Göygöl

## "Yeni Müsavat"ın əməkdaşları füsunkar göldə gördüklərindən yazır; ruhu dincəldən gözəllik, ecazkar təbiətə pampers atan vətəndaş...



















### Kəpəzin güzgüsü

Gölün füsunkarlığına tamaşa edib qayğılarından uzaq olmaq istəyənlər o qədər çoxdur ki, Göygöl rayonunun mərkəzində, Hacıkənd ərazisindəki yollarda tıxaclar əmələ gəlir. İllərdir ki, buralarda olan sakitliyi Göygölü görmək istəyənlərin maşınlarının səs-küyü, toz-tozanağı bürüyüb...

Bu göl bənzərsiz gözəlliyi, suyunun şəffaflığı ilə seçilir. Kəpəz dağının təbii güzgüsünə çevrilən bu göl tarixi mənbələrə görə əvvəllər axar çay olub. 1139-cu ildə baş vermiş zəlzələ nəticəsində dağ uçub və Ağsu çayının qarşısını kəsib. Nəticədə zəlzələnin yaratdığı möcüzəvi bir göl - Göygöl öz təbii zənginlikləri ilə bərabər əmələ gəlib.

### Farelin və Qafqaz maralının məskəni Göygöl

Bu gün göldə xüsusi növ farel balığı var. Azərbaycanın digər çay farellərindən xeyli fərqlənən Göygöl farelinin əmələgəlmə tarixi Göygölün yaranma tarixinə bağlıdır.

Göygöl ətrafındakı meşədə Qafqaz maralı, ayı, təkə, cüyür, porsuq, meşə pişiyi, samur, vaşaq, dovşan, dələ, quşlardan Xəzər uları, qara kərkəs, kəklik və başqa heyvanları gələcək nəsillər də müşahidə edə biləcək. Bitki örtüyü də çox zəngindir.

### 80-dən artıq bitki və gülün vətəni

Burada 80-ə qədər ağac və kol növünə rast gəlmək olur. Göygölün ətrafındakı meşədə Şərq fıstığı, şərq palıdı, Qafqaz vələsi, tozağacı, adi göyrüş, itiyarpaqlı ağcaqayın, cökə, iynəyarpaqlı ağaclardan qarmaqvari şam, kol bitkilərindən zoğal, zirinc, itburnu, əzgil, gərməşov, böyürtkən, ot bitkilərindən Qafqaz bənövşəsi, alp dişəsi, steven zəncirotu, xırdaçiçəkli ziboldiya, zəngçiçəyi, çobanyastığı, şırımlı topal, ağbığ, qırtıcla zəngindir.

Göygöl ətrafında 17 xırda göl də mövcuddur. Maralgöl, Zəli, Qara, Güzcü, 2-ci Zəli gölü, Ördək, Quş, Ayı, Çoban, Turist və xalq arasında ən müxtəlif adlarla tanınan göllər üzük qaşı kimi Göygölü əhatə edir. Adları çəkilən göllərin hər biri özünəməxsus şəkildə gözəl, füsunkar və möcüzəlidir. Bu göllərdən ölçülərinə görə Maralgöl ən böyüyüdür. Təbii ki, Göygöldən sonra. Maralgölə tamaşa etmək istəyənlər ilin günləri qədər pilləkəni qalxmaq əziyyətinə də qatlaşmalıdır.

Buraları Qafqazın hər fəsilə uyğun turistik zonası da adlandırmaq olar. Təbii ki, yol infrastukturunun ciddi şəkildə yeniləməklə bu məqsədə çatmaq olar.

Göl ətrafına girişə 7 illik məhdudiyyət dövründə ərazidə turistləri qəbul etmək üçün infrastruktur yaradılıb, hotellər, restoranlar tikilib. Qiymətlər də Bakıdakı restoranların təklif etdiyi qiymətlərdən artıq deyil.

Su-kanalizasiya xətləri, sanitar qovşaqlar, istirahətə gələnlərin ekosistemə ziyan vurmadan dincəlmələri, istirahət etmələri üçün şərait qurulub.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xüsusi qoruması altında olan Göygöl Milli Parkında görülən işlərlə bağlı "Yeni Müsavat"a nazirliyin "Bioloji Müxtəliflik Departamenti"nin direktoru Vaqif Cavadov məlumat verdi. Direktor deyir ki, Milli Parkın ərazisinə girişə tətbiq olunan məhdudiyyət ekosistemin əhəmiyyətli dərəcədə dirçəlməsinə, ərazinin zibilliklərdən təmizlənməsinə xidmət edib:** "Bu gün Göygöl ətrafında istirahət etmək istəyənlər üçün hər bir şərait var. Və bu şərait gölə, ətrafdakı bitki örtüyünə, heyvanlar aləminə ziyan vurmadan gözəl istirahət etməyə imkan verir. Bura gələnlər xüsusi dayanacaqda maşınlarını saxlayıb istədikləri mövcud marşrutlar üzrə sərbəst şəkildə hərəkət edə bilərlər". **Onun sözlərinə görə, vaxtilə Göygöl gölü ətrafında nəzarətsizlik mühiti olub. Bu da göl və gölətrafı ərazilərdə ekoloji balansın pozulmasına səbəb olub. Belə bir şəraitdə məhdudiyyətlərin tətbiqi göl və ətrafındakı bitki örtüyünün məhv olmasının qarşısını alıb, təbii bərpa prosesi gedib:** "Bu gün bizim əsas fəaliyyətimiz bir daha ekosistemin dağıdılmasına imkan verməməkdir. Məhdudiyyət aradan qaldırılandan 1 gün sonra bura gələnlərin davranışı təəssüf ki, 1 həftə sonra müşahidə olunmadı. Artıq ərazinin zibillənməsi, ot örtüyünün tapdanması halları var. Normalda Göygöl Milli Parkının ərazisində eyni vaxtda 500 nəfər gəzintiyə çıxıb təbii füsunkarlıqdan zövq ala, istirahət edə bilər. Şənbə-bazar günləri turistlərin sayı qat-qat artıq olur. Bura 1 gün ərzində 3500 nəfərə qədər turist üz tutur. Həddindən artıq yüklənmə var. İstirahətə gələnləri qapıdan geri qaytarmaq sadəcə mümkün və düzgün deyil. Ona görə də həftədə 1 gün sanitar günü elan etməklə vəziyyətdən çıxmağa, fəsadları aradan qaldırmağa çalışacağıq".

### Göygölə tolazlanan pampers...

**V.Cavadov sözünü bitirməmiş turistlərdən biri uşağının paltarını soyundurmağa başlayır. Pampersi uşağın belindən açıb var gücü ilə göl ətrafındakı meşə zolağına tullayır. Park əməkdaşlarının iradına isə qadının həyat yoldaşı çox kobud reaksiya verir.**

**V.Cavadov:** "1 həftədir ki, açılış olub. Demək olar ki, hər gün belə vəziyyətlər təkrar olunur. Siqaretin kötüyünü yerə tullayır, suyu içib butulkasını, dəmir qabını atırlar meşəyə, gölün içinə. Halbuki ərazidə 200-ə yaxın zibil yeşiyi qoyulub. Xarici turistlərin davranışları isə Milli Park ərazisində tətbiq olunan qaydalardan kənara çıxmır. Hələ camaatın gözü qarşısında soyunub gölə tullanan da, əlində tort gətirib gölətrafı marşrutlar üzrə gəzintiyə çıxmaq istəyənlər də var!"

**Onun sözlərinə görə, turistlərin böyük əksəriyyətinin çox ciddi şəkildə maarifləndirilməsi işlərinə ehtiyac duyulur. Turistik gəzintiyə çıxanlar Milli Parkın ərazisində özlərini necə aparmalı olduqlarını bilməlidirlər:** "80-cı illərin ab-havası ilə bura gələnlər də çoxdur. Əllərində samovar, qoyun cəmdəyi, manqal gətirənlər saysız-hesabsızdır. O dövrlər belə idi. Qoyun-quzunu gətirib gölün kənarındaca kəsib kabab çəkirdilər, heyvanın qanı, iç-çalatı töküldü gölə. Göldə çimib gətirdikləri ərzaqların qutularını tullayıb gedirdilər. Zir-zibili külək vurub gölə tökürdü. Bu göldən Gəncə şəhəri, ətraf rayonların su təminatı həyata keçirilir. Məhdudiyyətdən sonra isə infrastuktur yaradılıb. Hazırda Göygöl Milli Parkı ərazisində antisanitariya yoxdur. Üstəlik, o dövrdə bunca turist də yox idi. O dövrdə göl ətrafına ayda 1000 nəfər istirahətə gəlirdisə, hazırda hər gün 1000 nəfərdən artıq turist gəlir".

Məhdudiyyət aradan qaldırılandan sonra Göygöl Milli Parkı ərazisinə giriş 2 manatdır. Nazirlər Kabinetinin qərarı ilə tətbiq olunan bu qiymətə maşınların parklanması haqqı daxil deyil. Park ərazisindəki maşın saxlamaq üçün dayanacaqlar hazırlansa da, hazırda təmir-tamamlama işləri davam edir. Maşınla Milli Parka istirahətə gələnlər saatına 50 qəpik ödəməklə nəqliyyat vasitələrini dayanacaqda saxlaya bilərlər. Ərazidə turistlərin kabab çəkmək, ailəvi istirahət etməsi üçün xüsusi köşklər qurulub, sərfəli təkliflər var. Köşklərdə turistlərə manqal, samovar, su, stol, stul, boşqab, zibil yeşiyi təqdim olunur. 12 nəfərin eyni vaxtda istirahəti üçün təqdim olunan köşkü səhərdən axşama qədər kirayələmək olar. 1 nəfər üçün kirayə haqqı 4 manata yaxındır. Bu məbləği ödəməklə istirahət zonasına manqal və samovar kimi yükləri daşımadan, ekosistemə ziyan vurmadan, ərazini zibilləmədən rahat şəkildə istirahət etmək mümkündür. Bircə qalır nadir su incilərimizdən biri olan Göygöl ətrafında istirahət edərkən elementar qaydalara riayət edib fauna və floraya ziyan verməmək. Bu da bizim öz əlimizdədir.

❑ **"Yeni Müsavat"ın reportyor qrupu**

**Ötən həftənin nədənsə az diqqət çəkən, lakin kifayət qədər mühüm olaylarından biri də Xəzərdə Kremlin təşəbbüsü ilə Rusiya, Qazaxıstan və Azərbaycanın hərbi dəniz donanmaları gəmilərinin iştiraklı ilə keçirilən təlimlər oldu. Rəsmi məlumatlara görə, təlimlərdə məqsəd Xəzəryanı ölkələrlə hərbi əməkdaşlığı genişləndirmək idi.**

# Kremlin Xəzərdən Bakıya və Qərbə 3 mesajı

## Rusiya imkanı çatan bütün həmsərhəd regionlarda əsas rəqiblərinə və “şıltaq” qonşularına güc nümayiş etdirir; Moskva Azərbaycanda hərbi baza tikməyə hazırlaşır?..



Lakin aydındır ki, söhbət hansısa əməkdaşlıqdan yox, “əməkdaşlıq” adı altında şimal qonşumuzun növbəti dəfə akvatoriyada “əzələ nümayiş” etdirməsindən gedirdi. Kimə, yaxud kimlərə? Əlbəttə ki, ən əvvəl Rusiyanın hazırda gərgin münasibətlərdə olduğu Qərbə - ABŞ və NATO-ya, ardınca isə regionun “şıltaq” ölkələrinə və rejimlərinə. Çünki Rusiya ilə Qazaxıstan və Azərbaycanın, hətta İranın hərbi donanmalarının gücləri müqayisəyə belə gəlməz.

Xəbər verildiyi kimi, artıq rus hərbi gəmiləri Bakı sahillərini tərk edib. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Rusiyanın Xəzər Dəniz Donanmasının “Mahaçqala” və “Volqodonsk” kiçik artilleriya, həmçinin “Anatoliy Qujvin” kiçik hidroqrafiya gəmilərinin Bakıya rəsmi səfəri başa çatıb. Yada salaq ki, gəmilər Bakı sahillərinə avqustun 13-də yan almışdı.

***

**Yerli siyasi ekspertlər də əmindirlər ki, sanksiyalar altında sıxılan Rusiya belə taktiki manevrlərlə əslində zəif durumda olmadığını, əksinə, Qərblə hərbi-siyasi rəqabət qabiliyyətini saxladığını nümayiş etdirməyə çalışır. “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğluna görə, bunu Kremlin son addımları bir daha sübut edir (axar.az):** “Biri Xəzərdə başa çatan təlimlərdir. İkinci addım: Rusiyanın Hərbi Dəniz Qüvvələrinin komandanı Viktor Çirkov deyib ki, bu ilin sonunadək Xəzəryanı dövlətlərin Hərbi Dəniz Donanması və Hərbi Dəniz Qüvvələri komandanlarının komitəsi yaratmaq barədə müzakirələr aparılacaq. Rusiya bu məqsədlə Azərbaycan, Qazaxıstan və İranla məsləhətləşmələrə 2015-ci ilin iyulundan başlayıb. Və üçüncü addım - Rusiya hərbi gəmiləri növbəti dəfə Bakıdakı limanda lövbər saldılar. Bunlar ”Mahaçqala" və “Volqodonsk” kiçik artilleriya hərbi gəmiləri və “Anatoloiy Qujvin” kiçik hidroqrafik gəmisi idi".

**Politoloq hesab edir ki, Rusiya hərbi gəmilərinin tez-tez Bakı dəniz limanına gəlməsi siyasi mesaj xarakteri daşıyır:** “Bu dəfə hidroqrafik gəminin Azərbaycana gəlməsi sual doğurur. Çünki hidroqrafik gəmilər adətən kəşfiyyatla məşğuldur”.

**Siyasi şərhçinin sözlərinə görə, Rusiya bu addımlarını Xəzərsahili ölkələrlə əməkdaşlığı genişləndirmək məqsədilə atdığını bəyan edir:** “Əslində isə Kremlin iki məqsədi var: birincisi, bununla ABŞ-a mesaj göndərir ki, Pentaqon Xəzər hövzəsində hərbi fəallıq haqqında düşünməsin, burada Rusiyanın hərbi hegemonluğunu qəbul etsin. İkinci məqsəd isə odur ki, əməkdaşlıq etdiyi Xəzərsahili ölkələrin özləri Qərbin hərbi strukturları ilə əməkdaşlıqdan çəkinsinlər”.

**Təhlilçi rəsmi Bakının Rusiyadan silah aldığını, Xəzərdə birgə hərbi təlimlərdə iştirak etdiyini, bununla belə, Rusiyanın müdafiə sistemindən ehtiyat etdiyini bildirir:** “Çünki Rusiya Azərbaycan torpaqlarını işğal edən Ermənistana silah verməkdə davam edir. Bu məqsədlə hətta İrəvana 200 milyon dollar kredit verib. Rusiya ordusu Cənubi Osetiya üzərindən Bakı-Supsa neft kəmərinin bir hissəsi üzərində nəzarəti də ələ keçirib. Bu da Bakıya mesajdır. Digər tərəfdən, Rusiya Türkmənistan qazının Xəzərin dibi ilə Azərbaycan üzərindən Avropaya daşınmasını da əngəlləyir. Bu isə Türkmənistan və Azərbaycanın maraqlarına cavab vermir. Bu səbəblərə görə də regional təhlükəsizlik və boru xətlərinin qorunması məsələsində Azərbaycan ABŞ və NATO ilə əməkdaşlığa üstünlük vermək məcburiyyətindədir”.

***

Yəni daha bir (üçüncü) ciddi mesaj Xəzərin karbohidrogen ehtiyatlarının gələcək istismarı ilə bağlıdır. Təsadüfi deyil ki, az öncə Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi TANAP-ı nəzərdə tutaraq birbaşa Bakı və Aşqabada ünvanlı, şantaj mahiyyətli belə bir açıqlama vermişdi ki, transxəzər qaz kəmərinin inşası mütləq digər sahilyanı dövlətlərlə də razılaşdırılmalıdır. Bu, isə faktiki surətdə elə Moskvadan icazə istəmək anlamına gəlir.

Beləcə, Kreml öz “qaz qonşuları”nı həm təhdid edir, hədələyir, həm də guya onlarla əməkdaşlığa can atır. Həm Azərbaycana, həm də işğalçı Ermənistana silah verir, ancaq eyni zamanda onları müharibədən çəkinməyə çağırır, təki ikisinin də Moskvadan asılılığı zəifləməsin. Paralel olaraq, o, Güney Qafqazın üç ölkəsində daxili durumu nəzarətdə saxlamağa, özünün bu ölkələrdəki “5-ci kolon”çularını fəallaşdırmağa səy edir.

Bu, elə “qamçı və kökə” siyasətinin davamıdır ki, var. Ancaq müşahidələr göstərir ki, bir azdan Kreml “kökə”yə də lüzum duymayacaq. Təhlükəlisi həm də budur. Çünki özünün də bir azdan “kökəyə” ehtiyacı yaranacaq. Ayrı sözlə, günün birində Kremlin sırf hərbi ritorikaya keçəcəyi istisna edilməməlidir.

***

Maraqlıdır ki, bu arada Rusiyanın tərk etdiyi Qəbələ RLS-in əvəzində Azərbaycanda yeni hərbi baza tikməyə hazırlaşdığı barədə sensasiyalı məlumat yayılıb. Virtualaz.org-un xəbərinə görə, məlumatı Rusiya Müdafiə Nazirliyinin “Zvezda” telekanalı yayıb. Telekanal bildirir ki, hazırda Rusiya istənilən hava hücumundan müdafiə olunmağa imkan verən “qalxana” malikdir. “Nebo-U” və “Voronej-DM” radiolokasiya stansiyaları, habelə Avropada raketdən müdafiə sisteminin qorxulu yuxusu olan S-400 “Triumf” zenit-raket kompleksləri bu qalxanın-Rusiyanın Hava Hücumundan Müdafiə qoşunlarının zərbə gücünü təşkil edir.

**Telekanal daha sonra bildirir:** "“Voronej” stansiyalarının yenilərinin quraşdırılması davam edir. Özü də təkcə Rusiyada yox. Planlaşdırılır ki, 2017-ci ildə Azərbaycanda Bakının nəzarətinə verilən Qəbələdəki “Daryal” RLS-in əvəzində “Voronej-DM” tipli yeni RLS-in tikintisi başlayacaq. Yeni stansiya müstəsna olaraq Rusiyanın tabeçiliyində olacaq və bu da imkan verəcək ki, Armavirdəki RLS-in “əlinin çatmadığı” sahələr də izlənilsin".

Xatırladaq ki, “Daryal” tipli Qəbələ RLS-in icarə müddəti 2012-ci ilin dekabrında bitib. Bununla da Azərbaycanda Rusiyanın sonuncu hərbi obyekti də bağlanmış oldu və Rusiyanın ölkəmizdə hərbi iştirakı sona çatdı. Çatdımı?

***

Qeyd edək ki, hələlik nə rəsmi Bakı, nə də Müdafiə Nazirliyi məsələyə reaksiya verməyib. Belə bir niyyət varsa, onun nəyin qarşılığında reallaşacağına aydınlıq gətirilməyib. İstənilən halda bir daha aydın olur ki, Rusiya öz periferiyası boyu, ələlxüsus da strateji əhəmiyyətli Xəzər hövzəsi və Güney Qafqazda hərbi cəhətdən möhkəmlənmək, hətta yeri gələndə bundan ötrü bağlanan hərbi bazalarını təzədən açmaq və ötən saylarımızın birində qeyd elədiyimiz kimi, bölgəyə hərbi qayıtmaq planlarından əl çəkməyib. Şübhə yox ki, Kreml bu məqsədlərə çatmaq üçün bütün ənənəvi və sınanmış vasitələrin arsenalından istifadə edəcək.

❑ **Siyasət şöbəsi**




# Keçmiş səfirin “Ağ Marş” absurdu…

**Xəzər Teyyublu:** “Xaricdə oturmaqla…”
**Samir Əsədli:** “Lider daxildə olmalıdır”

**“İnterpol” tərəfindən axtarışda olan Azərbaycanın Avropa Şurası yanında Daimi Nümayəndəliyinin keçmiş rəhbəri Arif Məmmədovun avqustun 15-də “Ağ Marş” keçirilməsi ilə bağlı müraciəti uğursuzluğa düçar oldu. Həmin gün Bakıda aksiyanın heç bir əlaməti müşahidə olunmadı.**

Amma keçmiş səfir fərqli düşünür. O iddia edir ki, avqustun 15-də paytaxtda onun çağırışına qoşulan şəxslər əllərində ağ qərənfil və ağ çiçəklərlə küçələrə çıxıblar. Nə qədər uyğunsuz görünsə də, avqustun 16-da A.Məmmədov hətta sosial şəbəkələrdə status da paylaşıb: “Artıq məlumatlar alıram ki, dünən gün ərzində bəziləriniz ağ geyimlərdə və ağ qərənfillərlə şəhərin müxtəlif hissələrində gəzintiyə çıxmışdınız və polisin hansısa müdaxiləsi də olmamışdı. Bu, çox vacib məsələdir. İnanın, bu aksiya 10 dənə motodromda ya da stadionlarda keçirilən tədbirlərdən önəmlidir. Xahiş edirəm ki, bu gün də aksiyanı, gəzintiləri davam edəsiniz. Uğurlar arzulayıram. Bir çiçəklə bahar olmaz, amma hər bahar bir çiçəklə başlar”.

Keçmiş səfirin aksiyanın baş tutması ilə bağlı statusunun həqiqiliyini yoxlamaq üçün internet istifadəçiləri arasında kiçik bir sorğu apardıq. Hər kəs aksiyanın keçirilməsindən xəbərsiz olduqlarını bildirdi.

**Müsavat başqanının müavini Elman Fəttah “Ağ Marş” aksiyanın keçirilməsi barədə məlumata heç yerdə rast gəlmədiklərini bildirdi:** “Heç bir informasiya bülletenində və media orqanında belə bir siyasi aksiyanın keçirilməsi xəbərinə rast gəlməmişəm. Hazırda ölkənin siyasi vəziyyətində elə də aktivlik müşahidə olunmur. Heç bir siyasi qurumu olmayan şəxslərin aksiya çağırışları qeyri-ciddi addımdır. Ona görə də vətəndaşlar bu cür çağırışlara reaksiya vermirlər. Müxalifətin iş-gücü kiminsə müraciətinə qoşulmaq deyil. Hər bir siyasi qurumun öz taktikası var. Buna uyğun planlarını qurur”.

**KXCP sədrinin müavini Xəzər Teyyublu da aksiya keçirilməsi xəbərini yalanladı:** “Ölkədə ”Ağ Marş" keçirildiyi barədə məlumatım yoxdur. Subyektiv fikrimdir ki, Azərbaycanda siyasi dəyişikliklər birlikdən keçir. Hər bir fikrə hörmətlə yanaşıram. Amma xaricdə oturmaqla burada hansısa siyasi dəyişikliyə nail olmaq mümkün deyil. Belə məsələlər nəzərə alınmalıdır. Bu, ölkə xaricindən səslənmiş bir təklifdir. Arif bəydən başqa da bu cür təkliflər irəli sürən mühacirlərimiz indiyə qədər olub. Ölkədə siyasi mühitin dəyişməsini istəyən lider mütləq xalqın içərisində olmalıdır. Xalq gedən proseslərin nəticəsində öz liderini müəyyən etməlidir. Arif bəyin müxalifət barədə dedikləri normal qarşılanmalıdır. Çünki gözlədiyini almadı. Düşünürdü ki, müraciətinə dəstək veriləcək. Amma tamam əksini gördü".

**VHP İcra Aparatının rəhbəri Samir Əsədli A.Məmmədovun arzularla yaşadığını qeyd etdi:** “Arif Məmmədov niyyət edib. Hesab edir ki, niyyəti baş tutub. Ola bilsin ki, o, xəyal, arzularla yaşayır. Bütün bunlar onun şəxsi işidir. Biri gedib Avropada yaşayır, müəyyən vəzifədə çalışır, sonra isə xalqın lideri olmaq iddiasına düşür. Ölkədə repressiya, qanun pozuntuları var. Amma Avropada oturub, hakimiyyətə müxalif olmaq siyasəti doğru deyil. Lider daxildə olmalıdır. Müxalifət partiyalarının rəhbərləri bu xalqın liderləridir. Onların qərarı daim önəmli olur. Dəyişiklik, demokratiya bu ölkənin içərisində xalqın dəstəyi ilə olacaq. Müxalif liderlərinin iştirakı ilə”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 180 (6208) 18 avqust 2015

# Zakir Həsənovun Moskva səfərlərinin əsas hədəfi

**Azərbaycanın müdafiə naziri Zakir Həsənovun son üç həftədə Rusiyaya səfərlər etməsi diqqət çəkib və müzakirələrə səbəb olub. Xüsusilə də Qarabağa "sülhməramlı"ların yerləşdirilməsi ilə bağlı təşəbbüslərin səsləndiyi, Ermənistana rus silahının növbəti partiyasının ötürüldüyü, üstəlik, Ermənistanda Rusiya ordusunun hərbi təlimlərinə start verildiyi bir dövrdə azərbaycanlı nazirin şimal qonşumuzu davamlı ziyarət etməsi bəzi müşahidəçilər tərəfindən təsadüf kimi qiymətləndirilmir.**

Hətta bu arada Rusiyanın Azərbaycanda Qəbələ RLS-in əvəzinə yeni hərbi obyekt tikmək niyyətinin olması haqda iddialar da dövriyyəyə buraxılıb. İddialara görə, 2017-ci ildə Qəbələdə "Voronej-DM" tipli yeni RLS-in tikintisi başlayacaq.

Əksəriyyət belə düşünür ki, bütün bu təhdidlərin fonunda cənab Həsənovun Rusiyaya səfəri ən əvvəl Azərbaycanın maraqlarının təmin olunmasına hesablanıb. Çünki təyinat aldığı gündən kabinetdə deyil, cəbhə xəttində, əsgərinin yanında olmağa üstünlük verən müdafiə nazirinin Azərbaycan torpaqlarını işğaldan azad etməyə yönəlik fəaliyyəti hər kəsi məmnun edir.

**Hərbi ekspert Üzeyir Cəfərov də "Hürriyyət" qəzetinə açıqlamasında Azərbaycanın müdafiə naziri Zakir Həsənovun Rusiyaya səfərini şərh edib. Onun fikrincə, bu, adi səfər deyil:** "Azərbaycan müdafiə nazirinin Rusiyaya səfəri, zənnimcə, həm idman, həm hərbi, həm də siyasi baxımdan planlaşdırılan və mühüm əhəmiyyəti olan bir səfərdir. Aydın məsələdir ki, hər iki dövlətin bu ranqlı şəxsləri görüşən zaman sadəcə idman yarışları, hərbi əməkdaşlıq məsələlərini müzakirə eləmirlər. Belə görüşlər zamanı Qarabağ mövzusu da müzakirə olunur. Çünki Rusiyanın böyük narahatlığı var. Azərbaycanın hərbi-siyasi rəhbərliyinin mövqeyi ondan ibarətdir ki, işğal altında olan torpaqlar tez bir zamanda azad edilməlidir və dövlətimizin ərazi bütövlüyü bərpa edilməlidir. Rusiya isə bundan çox narahatdır. Onlar öz vassalı olan ermənilərə havadarlıq etməkdə davam edirlər. Onlar çalışırlar ki, həm Ermənistanın daxili auditoriyasını, həm də erməni siyasi rəhbərliyini sakitləşdirsinlər, onları əmin etsinlər ki, Rusiya Ermənistanın yanındadır".

**Ekspert Rusiyanın sözü ilə əməli arasında uyğunsuzluğun davam etdiyini, Zakir Həsənovun səsləndirdiyi bəzi açıqlamaların Moskvada ciddi narahatlığa səbəb olduğunu vurğuladı:** "Əslində Rusiya son vaxtlar bu prosesə çox mane olur. Guya onlar hansısa sülhyaratma missiyası ilə məşğuldurlar. Əslində isə Rusiya bu prosesi bir qədər də tormozlamağa cəhd edir. Yada salaq ki, may ayında Rusiyanın xarici işlər naziri azərbaycanlı həmkarı ilə görüşündə bildirdi ki, Dağlıq Qarabağ konfliktinin həlli yetişib. Üstündən bir müddət keçəndən sonra yenə eyni fikirləri səsləndirir. Rusiya rəsmiləri bu yöndə bəyanatlar versələr də, ortalıqda real heç nə



**Üzeyir Cəfərov:**
"Azərbaycan öz qəti mövqeyini ortaya qoyub... Görünür, Rusiyanı narahat edən də elə budur"



**Vaqif Dərgahlı:**
"Bu səfərlərə rəng qatmağa, yaxud hardasa müəmma axtarmağa ehtiyac yoxdur"

yoxdur. Buna görə də Azərbaycanın müdafiə naziri son vaxtlar cəbhə bölgəsinə etdiyi səfərlər çərçivəsində bir sıra fikirlər səsləndirdi. Bu fikirlər isə Rusiyanı narahat edir. Görüş zamanı bu məsələlərin də müzakirə edilməsi ehtimalı böyükdür. Azərbaycan öz qəti mövqeyini ortaya qoyub ərazi bütövlüyünü bərpa etmək üçün bütün lazımı addımları atacağını bəyan edib. Görünür, Rusiyanı narahat edən də elə budur".

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı "Yeni Müsavat"a bildirdi ki, nazirin Moskva səfərində qeyri-adi heç nə axtarmağa dəyməz:** "İyul ayının sonlarında da müdafiə naziri Moskvaya getmişdi. Çünki beynəlxalq hərbi oyunlar keçirilirdi. Müxtəlif ölkələrin müdafiə nazirləri, hərbi rütbəli şəxsləri, o cümlədən bizim müdafiə naziri Rusiya müdafiə naziri, ordu generalı Şoyqunun dəvəti ilə o tədbirdə iştirak etdi. Nazir həm açılış, həm də bağlanış mərasimində, o cümlədən də mükafatlandırma mərasimində iştirak etdi. Hətta bunu Rusiya telekanallarından biri canlı olaraq yayımlayırdı, burda qeyri-adi heç nə yox idi. Açılış mərasiminə gedərkən cənab nazir rusiyalı həmkarı ilə görüşmüşdü, biz bu barədə də məlumat vermişdik. Bağlanış mərasimində də qatıldı, bunlar planlaşdırılmış səfərlər idi. Yəni bu səfərlərə rəng qatmağa, yaxud hardasa müəmma axtarmağa ehtiyac yoxdur".

Bu arada orduda kadr islahatlarının aparılması da əksəriyyət tərəfindən təqdir olunur. Yayılan xəbərə görə, Müdafiə Nazirliyində daha bir nəfər vəzifədən çıxarılıb. Aznews.az-ın məlumatına görə, nazirliyin Kadrlar İdarəsinin rəisi, general-mayor Rasim Əliyev vəzifəsindən azad edilib. General-mayor Müdafiə Nazirliyinin Mənəvi psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi vəzifəsinə gətirilib. Polkovnik Rüfət Əmirov iki gün öncə bu vəzifədən çıxarılıb. O, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi vəzifəsinə təyin olunub. R.Əliyev 2014-cü ilin may ayında Kadrlar İdarəsinin rəisi təyin edilmişdi. Bundan əvvəl isə o, Naxçıvan Muxtar Respublikasındakı Heydər Əliyev adına Hərbi Liseyin rəisi postunda idi.

Polkovnik Fuad Məmmədov Azərbaycan müdafiə nazirinin müavini, Müdafiə Nazirliyinin Maddi-Texniki Təchizat Baş İdarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən şəxs təyin olunub. Bu barədə virtualaz.org saytına mötəbər mənbələrdən məlumat daxil olub.

Xatırladaq ki, general-mayor Qorxmaz Qarayev Maddi-Texniki Təchizat Baş İdarəsinin rəisi vəzifəsindən azad olunub. General Qarayev hərbi birləşmələrdən birinin komandirinin müavini vəzifəsinə göndərilib.

**Müdafiə Nazirliyi hələlik bu məlumatları nə təsdiq, nə də təkzib edir.**

❑ **Cavid TURAN**

# Türkiyə-İran münasibətləri gərginləşir

## Ankara Tehranın bölgədə artan rolundan narahatdır, Vaşinqton isə Türkiyəni nəzarət altında tutmaq üçün kürd kartından istifadə edir; bu vəziyyətdə Bakı üçün yeni şanslar açılır

**ABŞ-İran anlaşması və bunun ardınca Vaşinqtonun Türkiyə ilə İŞİD-ə qarşı antiterror mübarizəsi razılaşması Tehran-Ankara münasibətlərini daha da soyuqlaşdırıb. Məlum olduğu kimi, AKP hakimiyyəti dönəmində xeyli dərəcədə istiləşən İran-Türkiyə münasibətləri "ərəb baharı"nın Suriya "səhifəsi" ilə qapandı. Daha doğrusu, iqtisadi münasibətlər qalsa da, siyasi əlaqələr soyuqlaşdı. Çünki Suriya məsələsində faktiki olaraq Türkiyə və İran qarşı-qarşıya dayanan cəbhələrdə yer aldılar.**

İran beynəlxalq təzyiqlərə baxmayaraq, Rusiya ilə birlikdə Suriya prezidenti Bəşər Əsədi dəstəklədi. Türkiyə hakimiyyəti isə Əsədin devrilməsi üçün bütün gücünü və imkanlarını səfərbər etdi. Ancaq bütün bunların fonunda Ankara və Tehran arasında embarqo dönəmində gizli qaz və neft ticarəti davam etdi. Məlum olduğu kimi, İranın enerji bazarına *(leqal və "qara bazara")* çıxışında Türkiyənin əhəmiyyətli payı var. Üzə çıxan gizli sənədlərdən və həbslərdən də məlum olduğu kimi, iqtisadi sahədə İran-Türkiyə gizli əlaqələri "açıq sahədə" olduğu qədər düşmənçəsinə olmayıb.

Ancaq İranın indi ABŞ və bütövlükdə Qərb ölkələri ilə anlaşması İslam Respublikasının regionda rolunun artacağı ilə bağlı şərhlərə səbəb olub. Hər kəs anlayır ki, Tehran embarqo sıxıntılarından qurtulduqdan sonra artan gəlirlərini həm də regiondakı siyasi layihələrinə cəlb edəcək. Yəni gücünü və təsirini daha da artıracaq. Qərb analitiklərinin təhlillərindən belə məlum olur ki, indiki vaxtda bunu Vaşinqtonda da istəyirlər. Bununla Vaşinqtonun Yaxın Şərqdə dövlətlər arasında güc rəqabətini dərinləşdirməsi, gərginliyi daha da artırması və bölgədə hakim rolunu qoruyub saxlaması daha rahat olacaq.

Ankara isə bu prosesi narahatlıqla izləyir və təbii ki, Türkiyədə yaxşı anlayırlar ki, Vaşinqtonun əski düşmənlərlə barışması ənənəvi müttəfiqlər üzərində təzyiqi daha da artıracaq. Üstəlik, Vaşinqtonun yeni Suriya siyasəti və kürdləri bölgədə *(formal olaraq İŞİD-ə qarşı mübarizədə - K.R.)* dəstəkləməsi Ankaranın maraqları ilə daban-dabana ziddiyyət təşkil edirdi. Bu səbəbdən də Ankara məhz İran-"altılıq" anlaşmasından dərhal sonra Vaşinqtonla terrora qarşı mübarizə mövzusunda anlaşdı. Ankara İncirlik bazasını Vaşinqtonun İŞİD-ə qarşı istifadəsinə icazə verməsi, ölkə daxilində və Suriya ərazisində İŞİD-ə qarşı mübarizə aparması qarşılığında Vaşinqtonla kürdlərə olan dəstəyi geri çəkməsində anlaşdı. Ankaranın bu addımı bir mənada kürdləri zəiflədib Suriyanın şimalından çıxarmaq və eləcə də İranın təsirini azaltmağa hesablanmış siyasi gediş idi. Lakin görünən odur ki, Vaşinqton Ankaraya kürdlərə qarşı mübarizədə ciddi dəstək vermək niyyətində deyil.

Vaşinqton Türkiyə hakimiyyətinin bölgədə daha fəal siyasi və hərbi gedişini nəzarət altında tutmağa çalışır. Yəni sadə dildə deyilsə, Vaşinqton Ankaranın Yaxın Şərqdə müstəqil və qüdrətli oyunçu olmaq arzularının üzərindən xətt çəkir. Artıq Vaşinqtonun Türkiyənin Suriya ilə sərhədlərdə 2013-cü ildə yerləşdirdiyi "Patriot" zenit-raket komplekslərini oktyabr ayında geri çəkmək barədə qərar qəbul etməsi Vaşinqtonun Suriyanın şimalında hərbi fəaliyyətdə Ankaranın yanında olmaq istəmədiyi kimi yozulur.



Ancaq təbii ki, heç də düşünüldüyü kimi Vaşinqton regionda bu rolu Tehrana verməyə hazırlaşmır. Türkiyə hər nə qədər ABŞ-ın bu regionda əsas müttəfiqlərindən biri olsa da, Ankaranın son illərdə regionda liderlik fəaliyyətləri, Vaşinqtonun marağına uyğun gəlməyən addımları okeanın o tayında narazılıqla qarşılanır. Çünki ABŞ faktiki olaraq Yaxın Şərqin sahibi kimi çıxış edir və bu bölgədə bütün oyunçularla bu və ya digər formada əməkdaşlıq etməklə bölgədə ümumi düzəni nəzarətində saxlayır.

Bu mənada Vaşinqtonun kürdlərlə, həmçinin Türkiyə, İran, ərəb dövlətləri, Misir, Səudiyyə Ərəbistanı kimi region oyunçuları üzərində təsir yaratmaq cəhdi bölgədə "dayların oynaması" deyil, daha çox Vaşinqton nəzərindən "dəsların yerinə bərkidilməsidir". Çünki Obamaya qədərki Vaşinqton siyasəti göstərdi ki, ABŞ-ın Yaxın Şərqdə mübarizə cəbhələrindən birində yer alması onun gücünü azaldır. Yəni 10 il əvvələ qədər Vaşinqton bölgədə işğalçı, İsrailin əsas himayədarı, ərəb rejimlərinin dayağı statusunda çıxış edirdi. Təbii ki, bu cəbhədə Vaşinqtonun ölkələr və ictimai rəy səviyyəsində güclü düşmənləri vardı. Ancaq indi Obama hökuməti Yaxın Şərqdə "hər kəsə bərabər məsafədə" dayanan arbitr kimi çıxış edir və ya etməyə çalışır.

Beləliklə, bölgədə yaranmış yeni siyasi vəziyyət əski rəqibləri yenidən üz-üzə qoyub. Ankara kürdlərin yenidən ayaqlanması və Türkiyə ilə savaş başlatmasında Tehranı günahkar görür. Türkiyə hakimiyyəti hesab edir ki, Tehran kürdləri dəstəkləməklə bölgədə təsir gücünü artırmaq, həmçinin Ankaranın Suriya siyasəti ilə bağlı əl-qolunu bağlamağa çalışır.

Tehran isə təbii ki, yaranmış vəziyyətdən istifadə edərək Suriyada Bəşər Əsədin mövqelərinin gücləndirilməsinə dəstək verir. Aydındır ki, Ankaranın Vaşinqtonla dil tapa bilməməsi, Amerikanın kürdləri dəstəkləməkdə davam etməsi B.Əsəd üçün əlverişli vəziyyət yaradır. İndi Ankaranın "kürd məsələsində" ilişib qalması Bəşər Əsədin xeyrinədir. Aydın məsələdir ki, İslam Respublikası rəhbərliyi də Vaşinqtonun İran faktorundan ərəb dövlətləri və Türkiyə üzərində siyasi "nizamlayıcı" kimi istifadə etməyə çalışdığını anlayır. Buna görə də Tehran rəhbərliyi hər dəfə İranın ənənəvi siyasi kursdan geri çəkilməyəcəyini bəyan edir.

Beləliklə, Yaxın Şərqdə siyasi münasibətlərin daha da gərginləşməsi tendensiyası davam edəcək. Qarşıdakı illərdə Tehranın siyasi aktivliyinin artması Ankara-Tehran münasibətlərini daha da gərginləşdirəcək. Nə qədər qəribə də olsa, Yaxın Şərqdə qarşıdurma həddində olsalar da, İran və Türkiyə Qafqazda daha çox əməkdaşlıqda maraqlı görünürlər. Bu mənada Ankara və Tehranın münasibətlərinin gərginləşməsi Azərbaycan üçün münasib vəziyyət yaradacaq. Bakı hətta iki ölkə arasında barışdırıcı missiya daşıya, bir sıra siyasi və ya iqtisadi məsələlərdə vasitəçi rolunda çıxış edə bilər.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 180 (6208) 18 avqust 2015

# Cavid Hüseynov vəhhabidirmi?



**Azərbaycan idmanında vəhhabi təriqətinə qoşulma meyllərinin son illərdə artdığı müşahidə olunur. Onu da qeyd edək ki, bu hal daha çox futbol sahəsində büruzə verir. İndiyə qədər "Qarabağ" futbol klubunun timsalında bir çox futbolçunun vəhhabi olması barədə fikirlər səslənib. Hətta bəzi futbolçuların konkret adları da çəkilib.**

Xüsusilə bu məsələ jurnalist Rasim Əliyevin döyülüb öldürülməsindən və baş verən hadisədə "Qəbələ" klubunun sabiq kapitanı Cavid Hüseynovun adının hallandırılmasından sonra bir daha gündəmə gəldi. Hazırda həbsdə olan sabiq kapitanın vəhhabi təriqətinə məxsus olması barədə iddialar var.

**Qol.az saytının baş redaktoru Aydın Bağırov** son illərdə idmanda dinə meylli insanların sayının artması faktını təsdiqlədi: "Son illər təkcə futbolumuzda deyil, bütövlükdə idmanımızda dinə meylli insanların sayı çoxalıb. Mənim şəxsən tanıdığım, dostluq münasibətində olduğum neçə-neçə mömin idmançı və futbolçu var. Amma problem ondadır ki, xüsusilə məşhur idmançılarla bağlı bəzən kənardan çoxları bilib-bilmədən doğru olmayan fikir yürüdürlər. Xüsusilə vəhhabi məsələsi son vaxtlar "dəbə" düşüb. Bu faktı çoxları bilmir, bizdə elə məşhur dindar idmançılar var ki, hətta spirtli içkinin verildiyi məclisdə belə otururlar. Amma təbii ki, özləri içmirlər. Mən bildiyimə görə, dini fanatlar olan vəhhabilər heç vaxt belə məclislərdə oturmurlar".



**Aydin Bağırov:** "İdmançılar, futbolçular arasında bu təriqətin daşıyıcıları var"



**Natiq Muxtarlı:** "O, bu dini cərəyanın daşıyıcısı imiş..."

**İdman mütəxəssisi yanlış fikirlərin cəmiyyət arasında kütləvi şəkildə yayıldığını da qeyd etdi:** "Sözüm ondadır ki, bizim cəmiyyətdə belə bir yanlış fikir yaranıb. Hansı idmançı ibadətlə məşğuldursa, deməli, vəhhabidir. Təbii ki, idmançılar və futbolçular arasında da vəhhabilər var, amma onların sayı iddia olunduğu kimi, çox deyil. Konkret Cavid Hüseynovla bağlı duruma gəlincə, ümumiyyətlə, törədilmiş cinayətin Cavidin dinə münasibəti ilə nə əlaqəsi var, onu başa düşə bilmirəm. Fakt budur ki, kimlərinsə ağılsızlığı ucbatından bir gənc insan öldürülüb, başqa bir gənc isə futbolçu həyatının zirvəsində həbsxanaya düşüb. Cavidlə şəxsi tanışlığım olmayıb, amma bir müsahibəsində oxumuşdum və müsahibədən bilirəm ki, dinə bağlı adam olub. Amma onun vəhhabi təriqətinə yaxın olduğunu iddia edə bilmərəm. Çünki əlimdə heç bir faktım yoxdur".

**Komanda.az saytının redaktoru Natiq Muxtarlı bu məsələyə ittiham tərəfi kimi yanaşmağın doğru olmadığını düşünür:** "Fakt bilənlər üçün həqiqətdir. Bizdə də məlumat var ki, hansı klublarda kimlər bu təriqətə qulluq edirlər. Amma həmin şəxsləri ittiham edə bilmərik. Çünki insanın dini əqidəsinə qarşı yönəlmiş təzyiq vasitəsi ola bilər. Bu hal təkcə futbolumuza aid deyil. Xatırlayırsınızsa, bir güləşçimizlə bağlı problem yaşamışdıq. Ona əmr etmişdilər ki, saqqalını qırxsın. Qırxmadığına görə güləşdən getmişdi. Məsələyə bu istiqamətdən yanaşmaq lazımdır. Hansı futbolçunun vəhhabi olması artıq gizlədilmir. Açığı, Cavid Hüseynovun bu təriqətdən olduğunu bilmirdim. Əslinə qalsa, o, bu dini cərəyanın daşıyıcısı imiş. Ayrı-ayrı vaxtlarda Əfran İsmayılov, Rəşad Sadıqov, Qurban Qurbanovla bağlı belə məsələlər qabardılıb. Heç vaxt futbolçuları dininə görə ittiham etməmişəm. Məni Qurban Qurbanovun işi, Rəşad Sadıqovun oyunu maraqlandırır. Hansı dinə qulluq etmək idmançının şəxsi işidir. Əgər təhlükədirsə, geniş şəkildə araşdırılmalıdır. İnsanlar niyə bu təriqətə meyl edirlər? Yaranma səbəbləri araşdırılmalıdır. Bunu araşdırmaq jurnalistlərin yox, dövlətin işidir. Dövlət bu işlə ciddi məşğul olmalıdır. Amma etiraf edək ki, indiyə qədər adı vəhhabi təriqəti ilə bağlı hallanan idmançılardan aqressiv münasibət də görməmişdik. Qurban Qurbanovu məndən çox tənqid edən olmayıb. Amma o, heç vaxt mənə qarşı təzyiq etməyib. Rəşad Sadıqovu da buraya daxil etmək olar. Bütün sahələrdə vəhhabilər artır. Cəmiyyət kontekstində bu məsələ ciddi araşdırılmalıdır. Digər sahələrdə artanda, demək, futbola da təsir edəcək. Bu sahəni təzyiq altına salmaq olmaz. Bu psixoloji təzyiq olar. Bir futbolçu vəhhabidirsə, amma işini vicdanla yerinə yetirirsə, niyə onun üzərinə getməliyik? Qurban Qurbanov futbolumuza nüfuz gətirməkdən başqa heç nə ilə yadda qalmayıb. Cavidin konkret vəhhabi olması faktı yoxdur. Sadəcə, yaxınlarının, dostlarının dediyi kimi, dini inancı olub. Dilindən də dini inanca məxsus olması heç vaxt səslənməyib".

❑ **Cavanşir ABBASLI**

## Bu gün Cavid Hüseynovun apelyasiya şikayətinə baxılacaq

### Jurnalistin ölümünə görə tutulan futbolçu ev dustaqlığına buraxılmasını istəyir

**Jurnalist Rasim Əliyevin ölümünə görə həbs edilən "Qəbələ" futbol klubunun kapitanı Cavid Hüseynov avqustun 17-də Kürdəxanıda yerləşən Bakı İstintaq Təcridxanasına köçürülüb. Avqustun 18-də futbolçu haqqında həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması üçün Bakı Apelyasiya Məhkəməsinə müraciət ediləcək.**

Qeyd edək ki, avqustun 14-də Bakı Apelyasiya Məhkəməsi Cavid Hüseynovun şikayətini qəbul etməmişdi.

Hüquqşünas Müzəffər Baxış musavat.com-a açıqlamasında Cavid Hüseynovun ev dustaqlığına buraxılmasının mümkün olduğunu dedi.

Onun fikrincə, Cavid Hüseynovla bağlı qərar verilərkən onun idmançı olması, ictimaiyyət tərəfindən tanınması da nəzərə alına bilər. M.Baxışın sözlərinə görə, Cavid Hüseynovun hadisənin törədilməsində nə qədər günahının olması müəyyən edildikdən sonra ona qarşı yeni maddələrlə ittiham irəli sürülməsə, futbolçu ev dustaqlığına buraxıla bilər.

M.Baxış deyir ki, Cavid Hüseynova qarşı irəli sürülən Cinayət Məcəlləsinin 307.1, 307.2 maddələri az ağır cinayətlər kateqoriyasına aiddir: "Cavid Hüseynov barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsi ilə bağlı Cinayət Məcəlləsində heç bir problem mövcud deyil. Hər bir halda bu, məhkəmənin qərarından asılı olacaq. İstintaqın gedişatında əlavə dəyişiklik olmasa, məhkəmə ev dustaqlığı ilə bağlı qərar verə bilər".

Cavid Hüseynovun ev dustaqlığına buraxılması ilə bağlı müraciətinə dair xəbərə münasibət bildirən Rasim Əliyevin atası Məmmədəli Əliyev müsavat.com-a açıqlamasında futbolçunun şikayətinin təmin ediləcəyinə inanmadığını bildirdi. M.Əliyev oğlunun qatillərinin prezidentin nəzarəti altında həbs edildiyini və layiqli cəzalarını çəkmədən azadlığa buraxılmayacaqlarına inandıqlarını dedi.

Xatırladaq ki, avqustun 8-də Rasim Əliyev Bayıl qəsəbəsində bir qrup naməlum şəxs tərəfindən döyülərək çoxsaylı bədən xəsarətləri ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilib və avqustun 9-da orada vəfat edib.

Fakt üzrə Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanılaraq prokurorluq və polis əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb.

İstintaqın hazırkı mərhələsində Cavid Hüseynovun bibisi oğlu E.İsmayılovun təşkilatçılığı ilə ağır cinayətin hazırlanmasını bilərək bu barədə xəbər verməməsi, cinayətin törədilməsindən sonra isə qabaqcadan vəd etmədən onun gizlədilməsinə yönələn hərəkətlərə yol verməsində əsaslı şübhələr olduğundan ona Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələrində nəzərdə tutulan ittiham elan olunub və barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Cinayətin C.Hüseynovun təhriki ilə törədilməsi fərziyyəsi də istintaq-əməliyyat qrupu tərəfindən araşdırılır.

Xatırladaq ki, Cavid Hüseynovla yanaşı, jurnalisti döyən 5 nəfər də həbs edilib. Onlardan biri C.Hüseynovun bibisi oğlu Elşən İsmayılovdur.

❑ **İlkin MURADOV**

# Gənc cüdoçular etiraz aksiyası keçirdilər

### Füzuli Ələkbərov cüdonun gələcəyini məhv edir

**Cüdo üzrə gənclərdən ibarət millimizin üzvləri avqustun 17-də aksiya keçiriblər. "Koroğlu" metro stansiyasının yaxınlığında yerləşən parkda toplaşan idmançılar media nümayəndələrinə etirazlarının səbəblərini açıqlayıblar.**

Məsələ burasındadır ki, Azərbaycan Cüdo Federasiyasından idmançılara dünya və Avropa birinciliklərinə aparılmayacaqlarını söyləyiblər. Onlara "pul yoxdur, gedin nə istəyirsinizsə, onu da edin" deyiblər. İdmançıların etirazları da buna görədir.

**Cüdoçularımızın sözlərinə görə, onlara diqqət ayrılmır:** "Biz hər zaman layiqli yerlər qazanmışıq. Uğurlarımız olub. Amma maddi dəstək verilmir. Qarşıda iki güclü yarış var. Dünya və Avropa yarışlarında iştirak etmək istəyirik. Amma Cüdo Federasiyası bizə kömək etmir. Nə məşq edə bilirik, nə də buna şərait var. Məşq olmadan biz nə edə bilərik? Heç nə... Gənclərdən ibarət yığma komandanı unudublar. Federasiya bizə dəstək olmasa, biz heç nə edə bilmərik".

**Millimizin üzvü Firudin Dadaşov deyir:** "Müəllimimiz deyir ki, bizdən asılı bir şey yoxdur. Gedirik federasiyaya. Bizə rədd cavabı verirlər. Deyirlər ki, maliyyələri yoxdur. Yeniyetmələr öz hesablarına Avropa və Dünya Çempionatına getdilər. Bu çox davam edə bilməz. Gənclərə indi dəstək verməsələr, gələcəkdə onlar heç bir uğur əldə edə bilməyəcək. Cüdonun gələcəyi bu gedişlə sual altında qalacaq".

**Haqlarını tələb edən idmançılarımız bildirirlər ki, onların tək istəyi dəstəkdir:** "Bizim tək istəyimiz yarışlara qatılıb, uğurlar əldə etməkdir. Qalib olub, bayrağımızı birinci pilləyə yüksəltməkdir. Bunun üçün də bizə dəstək lazımdır. Çünki qarşıdan Avropa Çempionatı gəlir. Bu yarışmada iştirak etmək üçün hər bir idmançıdan 1900 manat pul tələb edirlər. Kimin pulu varsa, gedəcək, kimin yoxdursa qalacaq. Həmin idmançı bəlkə də yüksək yerləri tuta bilər. Amma maddi imkanı yoxdur deyə yarışdan kənarda qalacaq. Üstəlik, bu yarışda iştirak üçün qeydiyyat sentyabrın 7-də bitir. O günə kimi yarışda iştirak edəcək idmançıların siyahısı göndərilməlidir".





Gənclər federasiya rəhbəri Füzuli Ələkbərovu diqqətsizlikdə ittiham edirlər: "Bizə köməklik göstərməli olan şəxs Azərbaycan Cüdo Federasiyasının prezidenti Füzuli Ələkbərovdur. O da deyir ki, "Pul yoxdur". Əvvəllər də bu problemlər var idi. Amma bu qədər qabarıq deyildi. Əsas yığma komanda yarış öncəsi məşqlər edəndə biz də gedirdik. Bu il isə heç bu da yoxdur. Öz zalımızda məşq etməklə heç kim gedib Avropa Çempionatında yer tuta bilməz. Bizə normal şərait və məşq lazımdır".

**Cüdoçular prezidentə müraciət edəcəklərini dedilər:** "Biz qərara almışıq ki, prezident İlham Əliyevə və Mehriban Əliyevaya məktub yazaraq, müraciət edək. Biz idmançıyıq. Yarışlara qatılmaq istəyirik. Ölkəmiz üçün uğur əldə etmək istəyirik. Xahiş edəcəyik ki, yardım etsinlər ki, bizə şərait yaradılsın".

Məlumat üçün qeyd edək ki, cüdoçuların bu tipli etirazı artıq neçənci haldır. Bakıda keçirilən Avropa Çempionatında cüdoçularımız uğursuz nəticə əldə etdilər. Bundan sonra isə yarışda iştirak edən qadın cüdoçularımız bütün günahın federasiyasının prezidenti Füzuli Ələkbərovda olduğunu deyirdilər.

Bu ilin fevral ayında isə cüdo üzrə yığma komandamızın üzvləri 3 ay maaş ala bilmədikləri üçün etiraz aksiyası da keçirmişdilər.

Bakıda keçirilən Avropa Oyunları zamanı iştirak edən 18 idmançımızdan cəmisi 1 nəfər yer tuta bilmişdi.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 180 (6208) 18 avqust 2015



# Daha bir bank cinayəti

## İki dostun müştərək kredit oyunu qətllə nəticələndi

**"KredAqro" bank olmayan kredit təşkilatının Bərdə filialında kredit mütəxəssisi vəzifəsində çalışan Anar Ələkbərov müxtəlif şəxslərin adına kredit götürərək Tərtər Hərbi Məhkəməsində baş məsləhətçi işləyən uşaqlıq dostu Tural Şəfiyevlə bölüb.**

Kredit vaxtında ödənilmədiyi üçün dostlar arasında narazılıq yaranıb. Hər iki dost məsələnin həll edilməsi üçün görüşüblər, mübahisəyə yoldan keçən şəxs də qatılıb. İnsident nəticəsində Anar Ələkbərov qətlə yetirilib, Tural Şəfiyev isə həbs olunub. Lakin Tural Şəfiyevi müdafiə edən vəkil işə ədalətli baxılmadığını, buna görə də meyitin ekshumasiya olunmasını tələb edir.

Bu barədə virtualaz.org saytına vəkil Elçin Əliyev məlumat verib.

Vəkilin sözlərinə görə, müdafiə etdiyi Tural Şəfiyevə qarşı Cinayət Məcəlləsinin 120.2.1, 120.2.5 və 228.4-cü maddələri ilə ittiham irəli sürülüb: "Anar Ələkbərovla Tural Şəfiyev arasında 2013-cü ilin əvvəllərində müxtəlif şəxslərin adlarına götürdükləri kreditlərin ödənilməsi zamanı mübahisə yaranıb. Tural Anara krediti ödəməkdə köməklik təklif edib. Lakin Anar bununla razılaşmayıb. Hətta Tural mübahisəni Anarın əmisinə məxsus çayxanada sakitcə həll etməyi təkid edib. Amma mərhum Anar Ələkbərovun təkidi ilə Bərdə-Ağcabədi yolunun 19-cu km-də yerləşən Yuxarı Qarabağ su kanalının sahilinə gəliblər. Anar Turalı döysə də Tural ona xəsarət yetirməyib. Onlar mübahisə edən zaman təsadüfən yoldan keçən "ZİL-130" markalı avtomaşının sürücüsü Adil Bəbişov Anarı sakitləşdirməyə çalışıb. Mərhum isə Adil Bəbişovu söyüb. Bu səbəbdən də sürücü ona zərbələr endirib".

**Vəkil deyir ki, ittihamda Anar Ələkbərovun baş-beyin və bədəninin digər nahiyələrinə zərbələr vurularaq qəsdən öldürüldüyü qeyd olunub:** "Tural aldığı zərbələr nəticəsində yerə yıxılıb. Adil Bəbişovla Anar hadisə yerindən uzaqlaşıblar. Tural Adil Bəbişova çatanda Anarın onun yanında olmadığını görüb. Adil Anarın su kanalına düşdüyünü bildirib. Tural Anarı öldürməkdə təqsirli bilinir, halbuki Anarın axtarılmasında iştirak edib, onun kanala düşməsi haqqında yaxınlarına özü məlumat verib".

Sözügedən cinayət işi üzrə məhkəmə prosesinə Gəncə Ağır Cinayətlər Məhkəməsində baxılıb. Məhkəmənin qərarı ilə Tural Şəfiyev 13 il 9 ay, Adil Bəbişov isə 9 il müddətinə azadlıqdan məhrum ediliblər.

**Məhkəmənin qərarından narazı qaldığını deyən vəkil işə ədalətli baxılmadığını iddia edir:** "Turalla Anar uşaqlıq dostu olublar. Onların arasında ədavət, düşmənçilik olmayıb. Anar Ələkbərov "KredAqro" bank olmayan kredit təşkilatının Bərdə filialından tanışlarının adlarına rəsmiləşdirməklə müxtəlif məbləğlərdə kreditlər götürərək müştərək qaydada Turalla öz aralarında bölüşdürüblər. Qarşılıqlı razılaşmalarına əsasən götürülmüş həmin kreditlərdən öz paylarına düşən hissəyə görə ödəniş ediblər. Lakin bir müddət sonra Anar öz payına düşən kreditlə bağlı ödəniş etməyib. Bank isə kreditlərlə bağlı araşdırma aparıb. Buna görə də Anar işdən çıxarılıb".

Vəkil meyitin ekshumasiya edilməsini, işə yenidən baxılmasını və Tural Şəfiyev barədə çıxarılan hökmün ləğv edilməsini istəyir.

Bu vəziyyət bir daha göstərir ki, ölkəni kredit qalmaqalları bürüyüb. Kimi intihar edir, kimi öldürülür. Bunda isə bankların və kredit təşkilatlarının da rolu az deyil.

# Bakıda qız qaçırdılar

**Avqustun 16-da Bakının Yasamal rayonu ərazisində qızqaçırma hadisəsi baş verib. Şahidlərin musavat.com-a verdiyi məlumata görə, hadisə günorta saatlarında baş verib. 1993-cü il təvəllüdlü qız Sənan adlı şəxs tərəfindən qaçırılıb. 22 yaşlı qızın evlənmək məqsədilə qaçırıldığı deyilir. Hadisədən xəbər tutan qızın valideynləri Daxili İşlər Nazirliyinin "102-qaynar xətti"nə müraciət ediblər. Fakta bağlı Yasamal rayon 28-ci polis bölməsində araşdırma aparılır.**

❑ İlkin MURADOV






**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



# Dörd ay əvvəl ana və 2 yaşlı oğlunu qətlə yetirən şəxs tutulub

**Azərbaycanın Şəmkir rayonunda ana və azyaşlı övladını qətlə yetirən şəxs saxlanılıb. Hüquq-mühafizə orqanlarından APA-nın qərb bürosuna verilən məlumata görə, bu ilin aprel ayında Şəmkir rayonunun Totanlı yaşayış massivində Gədəbəy rayon Əli İsmayılov kənd sakini, 1990-cı il təvəllüdlü Bahar Hüseynova və onun 2 yaşlı oğlu Nihad qətlə yetirilib. Keçirilən əməliyyat-istintaq tədbirləri nəticəsində Şəmkir rayon İrmaşlı kənd sakini, 1983-cü il təvəllüdlü Fariz Mirzəyev şübhəli şəxs qismində saxlanılıb.**

Məlumata görə, F. Mirzəyev B. Hüseynovla qeyri-rəsmi nikahda yaşayırmışlar.

Faktla bağlı Şəmkir Rayon Prokurorluğunda araşdırma aparılır.




# Bərdədə 3 uşaq anası itkin düşüb

**Bərdədə 3 uşaq anası itkin düşüb. "Report"un xəbərinə görə, rayonun Molla Pənah Vaqif küçəsində yaşayan 28 yaşlı Tavat Adil qızı Məmmədova itkin kimi axtarışa verilib.**

Belə ki, qadın iyulun 17-də axşam saatlarında naməlum şəraitdə itkin düşüb. İtkin düşənin yaxınları bununla bağlı Bərdə Rayon Polis Şöbəsinə yazılı olaraq müraciət edib. Rayon polis şöbəsinin təhqiqat qrupu araşdırmalar aparıb və T.Məmmədova barəsində itkin düşmüş kimi axtarış elan edilib. Hazırda T.Məmmədovanın tapılması istiqamətində işlər aparılır.

Qeyd edək ki, T.Məmmədova 2010-cu ildə ailə qurub. Onun üç övladı var. Yaxınlarının bildirdiyinə görə, T.Məmmədovanın həyat yoldaşı ilə münasibətləri normal olub.

Faktla bağlı Bərdə Rayon Polis Şöbəsi axtarış elan edib, araşdırma aparılır.



# AzTV-də qalmaqal - İbrahim Məmmədov efirdən tamamilə uzaqlaşdırılıb

## Arif Alışanov xəbərlər departamentinin bütün işçilərini qovub; Qulu Məhərrəmli AzTV-də baş verən prosesləri şərh etdi: "Əgər sədrin müavininə hər hansı iradı, sözü varsa, bunu ikilikdə həll edə bilər"; "Yerində olmayan rəhbər ətrafındakı istedadlı adamlardan qorxur"

**Son illər Azərbaycan Televiziyası Səhmdar Cəmiyyətində (AzTV) baş verən qalmaqalların sayı-hesabı yoxdur. Arif Alışanovun sədrliyindən sonra telekanalda qalmaqalsız gün demək olar ki, yoxdur. İxtisarlar, səbəbsiz işdən çıxarılmalar, kanaldaxili çəkişmələr... və bunun mətbuatda öz əksini tapması...**

"Yeni Müsavat"a daxil olan məlumata görə, son narazılığın səbəbi səhmdar cəmiyyətin sədri Arif Alışanovla onun müavini İbrahim Məmmədov arasında yaşananlar olub. Daha öncə də bu barədə xəbər vermişdik. Əldə etdiyimiz məlumata görə, insidentə səbəb A.Alışanovun İ.Məmmədova qarşı qısqanc münasibətidir.

İ.Məmmədov prezidentin sərəncamı ilə sədr müavini təyin edilib, birbaşa aparatdan təlimatlar alır. "Həftə" analitik proqramının aparıcısı və müəllifidir. Sözügedən verilişin yaradıcı heyəti isə telekanalın xəbərlər departamentinin işçiləridir.

Bugünlərdə həmin departamentin işçiləri işdən çıxarılıblar. İbrahim Məmmədov isə son bazar günü efirə gedən verilişə buraxılmayıb. İ.Məmmədovu prezidentin sərəncamı ilə təyin olunduğu üçün işdən çıxarmaq mümkün olmayıb. A.Alışanov sözügedən departamentin işçiləri ilə müqaviləni yeniləməyib. Və bunun da nəticəsində o departamentdə İ. Məmmədovdan başqa heç kim qalmayıb. Onun da efirə çıxması yasaqlanıb. Mənbəmiz deyir ki, konflikt vəziyyətini tətikləyən həm də İbrahim Məmmədovun rəhbərlik etdiyi departamentin işçisi olan Ağanisə Sultanovanın öz hüquqları uğrunda mübarizəyə başlaması, prezidentə məktub yazaraq, şirkət rəhbərinin iradəsinin ziddinə olsa da, KİV DF-nin inşa etdirdiyi binadan ev alması və bu zaman İbrahim Məmmədov tərəfindən dəstəklənməsidir.

Məlumatda qeyd olunur ki, departamentin işçilərini AzTV-nin polis postundan içəri buraxmayıblar.

Daha bir məlumat isə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətində Hərbi Vətənpərvərlik redaksiyası baş redaktoru Firuz Kazımoğlunun işdən çıxarılması ilə bağlıdır.

Şikayətini mətbuat və sosial şəbəkə vasitəsilə çatdıran daha bir zərərçəkən AzTV-çi isə kanalın İctimai-siyasi proqramlar baş redaksiyasının əməkdaşı Ağanisə Sultanovadır. Onun işdən çıxarılması ilə bağlı yayılan məlumatlar birmənalı qarşılanmır. Jurnalistin işdən çıxarılması ilə bağlı bir sıra səbəblər irəli sürülüb. Onlardan biri Ağanisə xanımla AzTV-nin sədri Arif Alışanovun arasında baş verən narazılıqdır. İkinci səbəb isə rəsmi olaraq, Azərbaycan Teleradio Verilişləri QSC tərəfindən açıqlanıb. Şirkət telejurnalist A.Sultanovanın işdən çıxarılmasına aydınlıq gətirərək bildirib ki, 2015-ci il iyulun 31-də AzTV-nin bəzi əməkdaşlarının, o cümlədən Ağanisə Sultanovanın əmək müqaviləsinin müddəti başa çatır. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "b" bəndinə əsasən, onların əmək müqaviləsinə xitam verilir".

Ağanisə Sultanova özü işdən çıxarılmasını tam qanunsuz və qərəzli hesab edir. O, sosial şəbəkələrdə yazıb ki, prezident İlham Əliyevə yazdığı müraciət şirkətin sədri Arif Alışanovu qəzəbləndirdiyinə görə işinə "xitam" verilib.

**Tanınmış televiziya mütəxəssisi, keçmiş AzTV-çi Qulu Məhərrəmli isə "Yeni Müsavat"a açıqlamasında telekanalda baş verənləri şərh etdi. Amma ekspert dedi ki, əslində onun bu məsələlərə münasibət bildirməsi bir qədər obyektiv alınmaya bilər:** "Çünki özüm də AzTV-dən çıxmış adamam. Arif Alışanovla da münasibətlərimizdə gərginlik vardı. Amma bununla belə, baş verənləri şərh edərkən nəzərə almaq lazımdır ki, normal düşüncə idarəçilikdə müəyyən sabitlik olmasını tələb edir. Bir dövrdə kadr məsələsini həll edib, yaradıcı proseslərə keçmək lazımdır. O ki qaldı sədrlə müavini arasındakı konfliktə, bu, qeyri-normaldır. Arzulamazdım ki, sədrlə müavini arasında belə bir konflikt olsun. Əgər sədrin müavininə hər hansı iradı, sözü varsa, bunu ikilikdə həll edə bilər".

**Q.Məhərrəmli bildirdi ki, İ.Məmmədov AzTV-nin üzünü ağ edən adamdır. Onun sözlərinə görə, yaradıcı şəxs olması, veriliş aparıcılığı, üstəlik, dövlətin ideologiyasını əks etdirən xətt tutması onu televiziyada mühüm status sahibi edib:** "Bundan başqa, İbrahim Məmmədov zəhmətkeş biridir. AzTV-nin də üzünü ağ edən adamdır. Amma bu da faktdır ki, sədrlərin istedadlı adamlardan qorxusu olur. Daha dəqiq desək, yerində olmayan rəhbər ətrafındakı qabiliyyətli adamlardan narahat olur. Görünür, belə situasiya yaranıb və Arif Alışanov da onu neytrallaşdırmaq istəyir. Bunu nə qədər tezliklə həll edələr, bir o qədər yaxşı olar.

Arif Alışanovun iş prinsipində belə məqamlar var. O, pərdəarxası tələlər qurur, bir işçini o birinin üzərinə qaldırır. Amma bu, primitiv üsuldur və artıq tarixdə qalıb, bunu anlamaq lazımdır".

**Q.Məhərrəmli hesab edir ki, hazırkı situasiyada AzTV rəhbərliyi qarşıdurma enerjisini yaradıcılıq enerjisinə çevirsə daha yaxşı olar. Müsahibimizin sözlərinə görə, bunlar xoşagəlməz proseslərdir:** "O yerdə ki yaradıcılıq prosesi yoxdur və ya məhduddur, subyektiv münasibətlər ön plandadır, orda bu cür qalmaqallar olur. Bu da Arif Alışanovun rəhbərliyi ilə bağlıdır. O, sədr olandan belə proseslər davamlı baş verir və heç sabitləşmir. Hər zaman işdən çıxarılanlar olur. Özü də elə adamlar çıxarılır ki, onların jurnalistika tarixi var, yaradıcı insanlardır, iddiaları var. Bu da ümumən telekanalın işinə, yaradıcı proseslərə mənfi təsir göstərir".

❑ **Sevinc TELMANQIZI**

# Vergi müfəttişləri şəhid ailəsinə divan tutur

## Rafiq Rzayev: "Vergilər Auditi Departamentinin əməkdaşları məndən 25 min manat istədilər"

**"Vergilər Auditi Departamentinin əməkdaşları məni yanlarına çağırıb dedilər ki, bizə əvvəldən 25 000 manat "tas" verməsən bundan da böyük məbləğlə cərimə edib səni həbsxanaya saldıracağıq. Nəhayət, onlar istədiklərinə nail oldular..."**

Bu sözləri iki şəhid vermiş Bakı şəhər sakini Rzayev Rafiq Əsgər oğlu deyib. Redaksiyamıza gələn R.Rzayevin sözlərinə görə, qanuni yolla kiçik sahibkarlıqla məşğul olmaq istəsə də, Vergilər Nazirliyinin əməkdaşları ondan qanunsuz olaraq külli miqdarda rüşvət tələb ediblər. Məmurlar öz istəklərinə çatmadıqları üçün fırıldaqçılıq yolu ilə onun 200 000 (iki yüz min) manat cərimə olunmasına nail olublar: "Mən Bakı şəhəri Səbayel rayonu, M.Hüseyn küçəsi, ev 61-də, 32 kv.m sahəsi olan qaranlıq mənzildə, 6 nəfərdən ibarət ailə üzvümlə birlikdə yaşayıram. Bizim ailə iki şəhid verib. Ailəmizdə bir Qarabağ əlili və bir Qarabağ veteranı da var.

Yaşayış səviyyəm, dolanışığım ağır olduğuna görə 2012-ci ilin dekabr ayının 20-dən etibarən Bakı şəhərinin Nizami rayonu, Keşlə qəsəbəsi, Sabir küçəsi 31 ünvanında "Əbülfəz market" adlanan obyektdə icarə müqaviləsi bağlayaraq müvafiq qanunvericiliyə uyğun olaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa başladım. Elə həmin vaxtda Vergilər Nazirliyi yanında Vergilər Auditi Departamentinin əməkdaşları işləməyim üçün məndən əvvəlcədən 25 000 manat məbləğində pul istədilər. Mən də bildirdim ki, işə təzə başlamışam, mənim birdən-birə o qədər pula gücüm çatmaz. Belə olan halda vergi əməkdaşları mənə həmin məbləği vermədiyim təqdirdə işləməyə imkan verməyəcəklərini bildirərək hətta həbsxanaya saldıracaqları ilə də təhdid etdilər. Mən isə onlara heç bir cavab vermədən sakitcə departamenti tərk etdim. Bundan sonra vergi əməkdaşları mənim sahibkarlıq fəaliyyətimlə məşğul olduğum obyektə gəlib mütəmadi olaraq hər gün yoxlamalar aparmağa başladılar. O cümlədən vergi əməkdaşları əsassız olaraq 07.02.2013-cü il tarixli "Operativ vergi nəzarəti" qərarı açaraq, "nağd pul hesablaşmaları aparılması qaydalarına riayət olunması vəziyyəti haqqında" akt tərtib edib fırıldaqçılıqla məni 400 manat və 800 manat məbləğində cərimə etdilər.



Daha sonra məni yenidən departamentə çağırıb 25 000 manat pulu tələb etdilər. Mən dedim ki, nə üçün məni işləməyə qoymursunuz? Belə olan halda yenidən 26.04.2013-cü il tarixdən 30.04.2013-cü il tarixə qədər olan dövrə xronometraj metodlu müşahidə aparmaqla məni ümumilikdə 12 000 manat məbləğində cərimələdilər".

**R.Rzayev vergi orqanları əməkdaşlarının haqsızlıqlarına dözməyərək müvafiq qaydada məhkəməyə müraciət etdiyini və məhkəməni qazanmasına baxmayaraq heç bir əsas və sübut olmadığı halda külli miqdarda cərimə olunduğunu deyir:** "Bakı Apelyasiya Məhkəməsinin 30 aprel 2014-cü il tarixli 2-1 (103)-645/2014 nömrəli qərarına əsasən, mənim barəmdə vergi orqanı tərəfindən tərtib edilmiş "nağd pul hesablaşmaları qaydalarına riayət olunması vəziyyəti haqqında" vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında 15 mart 2013-cü il tarixli 1307700237030 nömrəli və 16 aprel 2013-cü il tarixli 13077002352021 nömrəli qərarlar ləğv edildi. Lakin məhkəmənin digər qərarları ilə mənim barəmdə aparılan xronoloji metodlu müşahidələrin nəticələri barədə tərtib edilmiş *(hansı ki həmin aktlar mənə imza etdirilməmişdir)* aktlara dair iddia etdiyim məhkəmələr mənim iddiamı təmin etmədi. Belə ki, xronometraj metodlu müşahidələrin aparılması üçün Vergi Məcəlləsinin 50-1 maddəsində göstərilən tələblər olmadığı halda mənim barəmdə həmin xronoloji metodlu müşahidə aparılmaqla mənə 200.000 manat məbləğində vergi borcu yazmaqla məni cəzalandırdılar. Halbuki mən sahibkarlıq fəaliyyətimə yeni başlamışdım və çox az məhsul sata bilmişdik. Bu cərimələrdən isə belə aydın olur ki, obyektdə külli miqdarda məhsul satılıb ki, bu qədər cərimə edilmişəm. Bütün bunlar Vergilər Nazirliyinin əməkdaşlarının törətdiyi məmur özbaşınalığı, fırıldaqlar üzündən baş verib".

**R.Rzayev olanlar üzündən ağır ürək xəstəliyinə düçar olduğunu bildirib:** "Bütün bu olaylar mənim infarkt xəstəliyinə tutulmağıma səbəb oldu. Əvvəlcə Bakı Sağlamlıq Mərkəzinin reanimasiya şöbəsində, daha sonra isə Musa Nağıyev adına xəstəxanada ürəyimdən cərrahiyyə əməliyyatı keçirdim. Bütün bunlar azmış kimi, 2014-cü ilin dekabr ayında mənim vergi borcum olduğunu bildirməklə əmlakımı siyahıya aldılar. Bu səbəblə haqqımda hətta istintaq işi də açılıb".

Şikayətçi Vergilər Nazirliyinin əməkdaşlarının özbaşınalığı haqda ölkə prezidentinə və digər aidiyyəti orqanlara müraciət edəcəyini, bunun da nəticəsiz qalacağı təqdirdə ailə üzvləri ilə birgə Azərbaycan vətəndaşlığından imtina edəcəyini deyib.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT

Son səhifə

N 180 (6208) 18 avqust 2015

# Meymuna işarə dili öyrətdilər

Amerikanın Viskonsin Universitetinin araşdırmaçıları başqaları ilə əlaqə saxlamaq üçün işarə dilini öyrənən dişi qorilla cinsindən olan Kokon adlı meymunun danışmağı öyrənmək yolunda ilk addımları atdığını iddia edirlər. Bugünlərdə işarə dilini öyrənən meymunun danışmaq üçün lazım olan nəfəs kontrolu və qavrama imkanlarına sahib olmadığını deyiblər. Lakin mütəxəssislər onu tərbiyə edərək 9 cür nəfəs çıxara bildiyini açıqlayıblar. Bu da onun danışmaq üçün atılan ilk addımları hesab edilir.





## Pulqabı mikrob yuvası imiş

Mauritus Universitetinin alimlərinin apardıqları yeni araşdırmalar nəticəsində məlum olub ki, heç vaxt təmizlənməyən pulqabı ən böyük mikrob yuvalarından biridir. Araşdırmaçılar qadın və kişilərin pulqablarını yoxlayaraq bu nəticəyə gəliblər. Araşdırma zamanı 80 qadından və 65 kişidən alınan 145 pul qabı üzərində araşdırma apardıqdan sonra onların 95%-nin üzərində zərərli bakteriyalar olduğunu deyiblər.



## Bu avtomobil arxa oturacaqdan idarə olunur

Sosial şəbəkələrdə paylaşılan modifikasiya olunmuş avtomobil şəkli görənləri heyrətə salır. Sükanı arxa oturacaqda olan avtomobilin dubaylı biznesmenə aid olduğu bildirilir. Bu avtomobildə qabaq oturacaqlar tamamilə sərnişinlərə aiddir və həmin maşını gəzinti üçün ideal hesab etmək olar. Çünki bu maşının qabaq oturacağında əyləşən sərnişinlər ətrafa 180 dərəcəlik bucaq altında tamaşa edə biləcəklər. Həmçinin sərnişinlər qarşılarındakı LCD monitorlarda televiziya və ya istədikləri bir filmə baxa biləcəklər. Sükanı arxa oturacağa keçirilən qəribə avtomobildə pedallar ləğv olunub və bu maşın sadəcə əllə idarə olunur.

# Prezident 79 kilo kartof yığdı

Belarus prezidenti Aleksandr Lukaşenko həftə sonu iqamətgahı "Drozdı"da vaxtını məhsul yığımına sərf edib. Avqustun 16-sı Lukaşenko öz balaca oğlu ilə birgə bütün gününü həyətyanı sahəsində keçirib. Saat yarım ərzində 18 hektar sahədən prezident və oğlu 7 kisə kartof yığıblar. Yığılan məhsulun uşaq və qocalar evlərinə veriləcəyi deyilir. "Belta" agentliyinin xəbərinə görə, prezident iqamətgahında həmçinin qarpız və yemiş də yığılıb. Sahədən yığılan ilk qarpızın dadına da elə oradaca baxılıb. Bu ilin aprel ayında vətəndaşları sağlam həyat tərzinə çağıran Lukaşenko hamıya məsləhət görüb ki, ətlə kartofu birgə yeməsinlər. "Axı nəyə görə sən axşam ətlə kartof yeyirsən? Bəs sonra necə yatacaqsan? Yaxşı olar ki, kartofu ət əvəzinə siyənəklə yeyəsən" - deyə prezident məsləhət görüb. Ölkə başçısı həmçinin əlavə edib ki, xaricdən gələn ərzaqlardansa yerli məhsul yemək daha faydalıdır.






## İnternetlə oğurluq

Taylandın Kon Kean şəhərində bir oğru Google Maps proqramından istifadə edərək bahalı evlərin yerini tapır, sonra isə oğurluq edirmiş. Thotsavat Lert adlı oğru Google şəbəkəsinin xəritə proqramından istifadə edərək həm lüks şəhərciklərin və evlərin yerini müəyyənləşdirir, həm də evlərə haradan girəcəyini müəyyənləşdirirmiş. Bu günə qədər onun oğurladığı motosiklet, mobil telefon, qızıl və brilyantlar daxil, 140 əşyanın ümumi dəyərinin 1000 min dollardan çox olduğu müəyyənləşib. Polislər kameralar və ayaq izlərinin köməyi ilə oğurluğun eyni adamlar tərəfindən edildiyini müəyyənləşdiriblər. Texnologiya oğrusuələ keçirildikdən sonra əməllərini etiraf edib. Onun sözlərinə görə, oğurluq edəcəyi evləri mart ayında planlaşdırıb. Ev sahibləri tətilə çıxdığı zaman isə planını həyata keçirib.




**QOÇ** - Ailə-sevgi münasibətlərində uğurlarınız gözlənilir. Bütün umu-küsüləri bir kənara atın. Taleyinizdə dönüş yarandığı indiki məqamda yalnız əzmkarlığınızı artırmalısınız.

**BUĞA** - Səhhətinizdə passivlik hökm sürdüyündən dincəlməyiniz daha məqsədəuyğundur. Ağır fiziki işlərdən, səfərə çıxmaqdan yayının. Axşamsa sevdiyiniz adamlarla təmiz havada gəzinməyə çalışın.

**ƏKİZLƏR** - Şəxsi büdcənizdə artım olacağı gözlənilir. Deməli, ev şəraitində az olmağınız lazım gələcək. Sizə ehtiyac duyanları sevindirməyə çalışın. Texniki avadanlıqlarla ehtiyatlı olun.

**XƏRÇƏNG** - Bürcünüzdəki planetar quruluş maddi dirçəlişdən xəbər verir. Ola bilsin ki, sizə borclu olanlarla rastlaşasınız. Saat 19-21 arası xoş bir təsadüflə rastlaşma ehtimalınız da var.

**ŞİR** - Nəhayət ki, qarşınızda duran bu tarixi üreyiniz istəyən tərzdə keçirə biləcəksiniz. Ətrafınızda baş verən bütün olaylar ruh yüksəkliyinizə səbəb olacaq. Qazanmaq ehtimalınız da var.

**QIZ** - Müəyyən gərginlik müşahidə olunsada, özünüzü ələ almaqla gözlənilən neqativliyi dəf edə bilərsiniz. Yaxşı olar ki, bu təqvimdə işlə bağlı heç bir danışıq və sövdələşmədə iştirak etməyəsiniz.

**TƏRƏZİ** - Darıxdırıcı məqamlarınız artıq arxada qalmaqdadır. Ruh düşkünlüyünə son qoyun. Çünki ulduzlar bu gündən başlayaraq taleyinizə müsbət məqamlar paylayacaq. Axşam maraqlı görüşləriniz mümkündür.

**ƏQRƏB** - Hiss olunur ki, qarşıdakı həftə üçün böyük bir sınaq meydanına çəkiləcəksiniz. Elə isə bəri başdan buna hazır olun. Dualar oxuyun, ziyarət edin və Tanrının varlığını başınız üstündə hiss edin.

**OXATAN** - Yaxşı olar ki, saat 16-ya qədər vaxtınızı ev şəraitində keçirəsiniz. Əks təqdirdə əsəbi situasiyalarla üzləşəcəksiniz. Sonrakı müddətdə isə maraqlı adamlarla rastlaşacaqsınız.

**OĞLAQ** - Qarşınızda əlamətdar bir təqvim durur. Vaxtınızın əsas hissəsini əyləncə və qonaqlıqlara həsr etməklə səmərəli anlar yaşaya bilərsiniz. İmkan daxilində səfərə də çıxmaq olar.

**SUTÖKƏN** - İşgüzar sövdələşmələr, pulla bağlı danışıqlar üçün münasib gün olmadığından bu kimi məsələləri təxirə salın. İndi sizə hər şeydən əvvəl orqanizminizi, xüsusən də əsəblərinizi qorumaq lazımdır.

**BALIQLAR** - Ayın sonuna qədər nəzərdə tutduğunuz işləri reallaşdırmaq istəyirsinizsə, bu təqvimdən səmərəli şəkildə yararlanın. Gün ərzində mühüm şəxslərlə sövdələşmələr aparın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qadınlar kəndi



1990-cı ildə Keniyada 15 qadının qurduğu kəndə heç kim girə bilmir. İngilislərin hücumuna məruz qaldıqdan sonra evlərindən qaçanların qoruyucusuna çevrilən Umoja Uaso "Qadın kəndi" döyülməkdən və kiçik yaşda evlənmək istəməyən qızların sığınacağına çevrilib. Bölgədəki Samburu qəbiləsində kiçik yaşlı qızları yaşlı kişilərlə evləndirirlər. Evlilikdən qaçan qızlar isə bu kəndə sığınır. 200 qadının yaşadığı kənddə uşaqlar üçün kiçik bir məktəb və kiçik bir poliklinika var.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300

YENİ MÜSAVAT
N 180 (6208) 18 avqust 2015



# Oyuncaq hekayəsi

Zamin HACI
zaminhaci@mail.ru

"Fənəri əridib ondan hər şey qayırmaq olar. Amma hər şeydən artıq onu sıxan bu idi ki, ona məlum deyildi: bir zaman küçə fənəri olduğunu yada sala biləcək, ya yox?"
**(Hans Kristian Andersen, "Köhnə küçə fənəri")**

**Mən onun haqqında hələ uşaqlığımda eşitmişdim. Ya da oxumuşdum, dəqiq yadımda deyil. Polyak uşaq həkimi və müəllim olub, faşistlər Polşanı tutanda, onun yəhudi şagirdlərini Auşvits (Osvensim) ölüm düşərgəsinə aparanda uşaqları atmayıb, birlikdə ölümə gedib. Hətta alman zabitlərdən biri vaxtilə onun kitablarını oxuyubmuş, o üzdən 2 dəfə ölüm qatarını tərk eləməyə şərait yaradıb, amma müəllim ölümə getdiklərini bilməyən şagirdlərini atmayıb, onlarla birgə qaz kameralarında həlak olub.**

Söhbət görkəmli pedaqoq Yanuş Korçakdan gedir. Hər bir müəllim, ümumən insan üçün örnək həyatın yiyəsi olan bu adam təəssüf ki, yaxınlara qədər bizə çox az məlum idi. Sovet hökumətinin belə gicbəsər senzura hərəkətləri vardı. Adamın adını çəkərdilər, amma əsərini oxumağa qoymazdılar. Örnək üçün, Engelsin "Anti-Dürinq" əsəri az qala uşaq bağçasında da keçilirdi, amma bu yazıq Dürinq kim olub, nə qələt eləyib - kimsə bilmirdi.

Sevindirici haldır ki, "Alatoran" nəşriyyatı təzəlikcə Yanuş Korçakın "Bir də balaca olsam" kitabını bizim dildə çap edib. Oxuyub məmnun oldum, uşaqlara münasibətimdə xeyli yanlışlarımı öyrəndim. Elə kitabı bitirdiyim günlərdə 6 yaşlı oğlumla kiçik anlaşılmazlıq yaşadıq. Bu yazını o səbəbdən yazıram.

Uşağa oyuncaq almışdım, həyətə apardı, itirdi. Dediyinə görə, hansısa uşaqlar oğurlamışdı. Mən ona inanıram, eyni zamanda oğurluğu sübut eləyə bilmədim. Əvəzində onu danladım, bir oyuncağa yiyə dura bilmədiyini dedim. Oyuncağı itirdiyindən çox mənim kobud danlağımdan pis olmuşdu. O yatdı, amma mən elədiyim hərəkəti düşünüb xeyli peşman oldum.

Məsələn, fikirləşdim ki, uşağı danlamağa, nəyəsə yiyə durmamaqda qınamağa zərrəcə haqqım yoxdur. Çünki uşaq vətənimizin 20 faizini yadelli, 80 faizini də "özelli" düşmənə verdiyimi anlasa mənim üzümə tüpürərdi. Ümumiyyətlə, almanın, fransızın, ingilisin, yəhudinin, lap elə qonşumuz gürcünün öz uşağını danlamaq haqqı var, bir azərbaycanlı böyükdə, valideyndə bu haqq qətiyyən yoxdur. Özümüz hansı keyfiyyətli ölkə qurmuşuq ki, uşaqlardan da nəsə umaq?

İkinci tərəfdən, əgər oyuncağı oğurlayan varsa, deməli bunu arzu edən uşaq varmış. Mən haçan başqa uşaqlara oyuncaq alıb verdim? Demək olar barmaq sayı qədər. Mənim, başqa azərbaycanlıların uşaqlarının nəinki oyuncaq alması, ümumən sağ qalması uğrunda mübarizə aparan, zindana düşən Rəşadət Axundovu, İlqar Məmmədovu, Tofiq Yaqublunu, Yadigar Məmmədlini düşündüm. Fikirləşdim bu adamlar öz uşaqlarını görməyə həsrətdir, mən isə eqoistcəsinə oğlumun oyuncağını axtarıram.

İşin statistik tərəfi də mənə maraqlı gəldi. Kiçik araşdırma apardım, azərbaycanlı uşaqların oyuncaq həsrətlisi olmasının səbəblərini, faciəvi durumu aşkara çıxardım. Buyurun, siz də o biabırçı oyuncaq statistikası ilə tanış olun.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2015-ci ilin yanvar-may aylarında Azərbaycana cəmi 626 min dollarlıq oyuncaq idxal edilib. Bizdə oyuncaq istehsalı yoxdur, o üzdən bu rəqəmi əsas götürək. Dünya standartına görə oyuncaq ancaq 0-14 yaş arası uşaqlara alınan əşyadır. Bu yaşdan olan adam sayı yenə DSK-nın məlumatına görə (2009-cu ildə) 2 milyon 153 min olub. İlin 5 ayı ərzində alınan oyuncağı bu uşaqların arasında bölsək orta hesabla hər uşağa... 0,29 sent dəyərində - 30 qəpiklik oyuncaq düşür. 12 aya, yəni 1 ilə hesablasaq orta statistik azərbaycanlı uşağın oyuncaq pulu cəmi 72 qəpikdir! Biz uşağa ildə heç 1 manatlıq oyuncaq almırıq, təsəvvür edirsinizmi bu nə deməkdir? Boz, mənasız, sevincsiz uşaqlıq deməkdir. Oyunlarla məntiq, toxunuş, rəng, musiqi duyumu, inkişaf, riyaziyyat və sairədən uzaq olmaq deməkdir.

Müqayisə üçün başqa dövlətləri də verim, özünüz nəticə çıxarın. Dünyada uşağa il ərzində orta hesabla ən çox oyuncaq xərci çəkənlərdən biri avropalılardır: 121 dollar. ABŞ-da isə valideynlərin illik oyuncaq xərci 242 dollardır. Bu rəqəm uyğun olaraq Britaniyada 280 dollar, Fransada 255 dollar, Yaponiyada isə lap ağlasığmazdır: 305 dollar!

İldə 72 qəpiklik oyuncaq alınan azərbaycanlı uşağın ildə 305 dollarlıq oyuncaq alınan yaponun uşağından ağıllı olacağını gözləmək debillikdir.



# "Müxalifət artıq yorulub və möcüzələr gözləyir"...

## Millət vəkili İqbal Ağazadə: "Demokratiya artıq əvvəlki illərdə olduğu kimi, xalq hakimiyyəti məsələsi deyil"

**Ümid Partiyasının sədri İqbal Ağazadə "Yeni Müsavat" qəzetinin qonağı olub və noyabrda gözlənilən seçki prosesi, regiondakı durumla bağlı qəzetin suallarını cavablandırıb.**

***- İqbal bəy, seçkiyə bir neçə ay qalır, ancaq ölkədə seçki atmosferi yoxdur. Bunun səbəbi nədir?***

- Bütün hakimiyyətlər çalışır və arzu edir ki, seçki marafonu sakit keçsin. Seçki kimi böyük siyasi teatrı normal müstəviyə iqtidarlar gətirir. Lakin Azərbaycan hakimiyyəti bu gün fərqli durum yaradıb. Azərbaycan müxalifəti də bunu dəyişməyi bacarmalıdır.

***- "Bacarmalıdır" ifadəsini hansı zaman üçün deyirsiz - 2015-ci il üçünmü, yoxsa daha uzun müddət üçün?***

- Ümumiyyətlə deyirəm. Müxalifətçiliyin fəlsəfəsi budur. Azərbaycan müxalifəti bu məsələlərdə gecikib və hesab edir ki, siyasi partiyalar və siyasi institutlar qədər də seçici seçkini gözləyir. Yox, belə deyil. Seçicinin qapısına getmək lazımdır. Seçicinin qapısını döymək lazımdır.

***- Fayda olurmu?***

- Çox faydası var. Seçici onu sayan, onun qapısını döyən, ondan səs istəyən namizədi dəyərləndirir.

***- Bəlkə bu siyasi fəallığın olmamasının əsas səbəbi odur ki, seçici kateqoriyası ilə tövsif olunan o əsas faktor seçkinin nəticələrinə, yəni səsvermənin nəyisə dəyişəcəyinə inanmır?***

- Hakimiyyətin siyasətində bu xətt çox qabarıq keçir ki, seçici prosesdə iştirak etməsin. Seçiciyə hər zaman ilk mesaj bu olub - sən nə seçmirsən, nə də seçilmirsən. Seçən də mənəm, seçilən də mənəm. Bu prosesdən sonra seçici kənara çəkilib və meydanda iki qrup qalıb - iqtidar və müxalifət qrupu. İqtidar və müxalifət qrupunun ortada qaldığı yerdə iqtidar qrupu hər zaman qalibdir. Niyə qalibdir? Ona görə ki, onun inzibati və digər resursları müxalifətin resurslarından üstündür. Müxalifətin resurslarından üstün olduğuna görə də o, hər zaman udur. Ona görə hakimiyyət çox maraqlıdır ki, meydanda xalq yox, qruplar qalsın. Müxalifət də bu müstəviyə çıxmağa məcbur olur. Baxın, siyasi partiyalar hələlik seçkidə namizədlərini müəyyən etməyiblər, hamı hələ bunu söz olaraq deyir.

***- Hamı, yəni siz də?***

- Bu gün Azərbaycanın siyasi institutları içərisində bir istisna var - Ümid Partiyası və "125-lər" Siyasi Klubu.

***- Ümid Partiyası əslində o qədər fəal görünür ki, kənardan baxanlar düşünür, bu insanlar bu qədərmi sadəlövhdür, seçkiyə inanırlar?***

- Gəlin, onda bir qədər keçmişə qayıdaq. 1988-ci il prosesləri başlayanda xalq o qədərmi sadəlövh idi? Biz prosesə qatıldıq, müstəqillik istədik, SSRİ-nin dağılacağına ümid etdik, müstəqil dövlətin yaranacağına ümid etdik. Prosesi biz ona qatılaraq yaratdıq. İndi Azərbaycan müxalifətinin çox böyük bir qismi həddən artıq yorulub və möcüzələr gözləyir. Bu kəsim bir az da sosial şəbəkə macəraçılarıdır. Bütün güclərini buna yönəldiblər.

***- Yəni real siyasətdən virtual aləmə keçiblər...***

- Bəli.

***- Siz burda fayda görmürsünüz?***

- Qətiyyən.

***- Facebookda Azərbaycan vətəndaşlarının böyük bir hissəsi toplanıb. 1 milyona yaxın azərbaycanlı bu sosial şəbəkədədir.***

- Aktiv siyasi status yazan, siyasi mövqe ifadə edən 300-dən çox adam yoxdur.

***- 300?***

- Bəli, 300. Biz bunu tədqiq etmişik. Siyasi proseslərə bu qədər az adam münasibət bildirir. İsrarla, iddia ilə deyirəm, siyahını da çıxara bilərəm. 250-300 nəfər saxta profillər açaraq sayı 1000-1500-ə çıxarırlar. Bundan o tərəfi yoxdur. Bu reallıqdır. İnsanları siyasətə gətirməyin yolu başqadır.



**"Milli Şuranın bu gün boykot qərarı verməsi əslində hakimiyyətə tabe olması deməkdir"**

***- Nədir?***

- Azərbaycan müxalifəti taktiki yöndən bütün cəbhələrin hamısında yanlış istiqamət tutub. Məsələn, insanlar radikallıqdan danışır, radikal çıxışlar edir; əməlləri isə onun tam tərsi olur. Bilirsizmi bu nəyə bənzəyir? Hakimiyyətin də ritorikasında bu var - "lazım gəlsə, biz İrəvana qədər gedib çıxa bilərik". Azərbaycan müxalifəti də nələrsə deyir. Amma ortada heç nə yoxdur. Seçici bunu görür və deyir ki, bu, sadəcə sözdür. Seçici görsə ki, siyasilər dedikləri sözün ardınca gedirlər, deyilən sözün reallaşması üçün proses aparırlar, seçici onlara dəstək verər. Ancaq seçici bunu görmür. Bundan başqa, radikallıq bu gün, xüsusən son 6-7 ildə, istər Yaxın Şərq regionunda, istər postsovet ölkələrində çox böyük problemlər yaradıb. Seçici üçün də, vətəndaş üçün də, ölkə üçün də, milli maraqlar üçün də... Fəaliyyəti bunun üzərində kökləyərək seçicini qazanmaq mümkün deyil. Musavat.com-un "Kimə səs verəcəksiniz" videoreportajında bir məqam vardı, bir şəhər sakini dedi ki, başqa ölkələrə baxanda biz sakit yaşayırıq, nəyimiz kəmdi, elə bu şəkildə də gedək... İnsanları qorxutmaq olmaz. Çünki insanlar onsuz da proseslərdən qorxur. Həm siyasi proseslərdən, həm də Yaxın Şərqdə və postsovet ölkələrində baş verən proseslərdən qorxurlar.

***- Həmin məkanlardakı qarışıqlıq Azərbaycana da keçə bilərmi? Bu qorxunun əsası varmı?***

- Hər şey ola bilər.

***- Amma Azərbaycanda radikal-dini müxalifət yoxdur...***

- Azərbaycanda dini müxalifət yoxdur, radikallığın elementləri fərqlidir. Ancaq Azərbaycanda müxalifət xalqı siyasətə cəlb edə bilmədiyinə görə başqa təbəqə xalqı prosesə cəlb edə bilər. Siyasi institutların ortada olmadığı yerdə hökmən nələrsə ortaya çıxacaq.

**"Azərbaycan hakimiyyəti manevr edərək bu mürəkkəb situasiyada hər kəsdən bir az məsafəli dayanıb, hakimiyyətini və ona gələcək problemləri ertələmək istəyir"**

***- Sizcə, bunu hakimiyyət texnoloqları hesablamırmı?***

- Hakimiyyət texnoloqları hələlik indiki cari durumu hesablayır - Ukraynada proses baş verir, biz ondan kənarda qalaq, Yaxın Şərqdə proses baş verir, biz ondan kənarda qalaq.

***- Qala bilirlərmi?***

- Hələlik qalırlar.

***- Bunu uğurlu sayırsızmı?***

- Uğurlu saymıram, keçici sayıram. Keçici uğurlar var. Lakin bu davamlı uğur olacaqmı? İqtisadiyyatın tempi aşağı düşür, manatın dəyəri aşağı düşür, sosial-iqtisadi durum geriləməyə doğru gedir. Bütün bunların fonunda bu susqunluq nə qədər davam edə bilər? Yaxud manevrlər Azərbaycan hakimiyyətinə nə qədər şans verə bilər? Bir dəfə sizə müsahibə vermişdim, ordakı fikirlərə görə tənqid olunmuşdum; deyirdilər, İqbal Ağazadə görmürmü ki, Azərbaycan hakimiyyəti Rusiyanın yanında dayanıb? Mən cavab verdim ki, xeyir, görmürəm, belə elementlər yoxdur.

***- İndi də o fikrinizdə qalırsınızmı?***

- Əlbəttə. Azərbaycan hakimiyyəti Rusiyanın yanında olmayacaq. Şəxsi maraqlardan dövlət maraqlarına qədər, heç bir göstərici buna imkan vermir.

***- Ortada olan bu görüntü nədir bəs?***

- Azərbaycan hakimiyyəti manevr edərək bu mürəkkəb situasiyada hər kəsdən bir az məsafəli dayanıb, hakimiyyətini və ona gələcək problemləri ertələmək istəyir. Hələlik bunu bacarır. Bu da seçiciyə fərqli bir inam verir. Seçici deyir ki, Ukrayna demokratik cəhətdən bizdən irəlidə idi, Avropaya daha yaxın idi, Sovetlər Birliyi dönəmində Birləşmiş Millətlər Təşkilatının üzvü idi. O ölkədə belə ciddi problemlər yaşanırsa, demək, bizdə də yaşana bilər, amma bizdə bu problemlər ötüşdürən var və s. 2008-ci ildə Gürcüstanda, bu gün isə Ukraynada baş verən olaylar Azərbaycan iqtidarının apardığı siyasəti qismən uğurlu siyasət kimi seçiciyə təqdim etməyə imkan verir.

***- Amma Ukraynanın bir hissəsində işğal, savaş varsa, digər hissəsində demokratik cəmiyyət qurulur, ciddi islahatlar aparılır. Azərbaycanın 20 faizi 20 ildən çoxdur işğal altındadır, ölkədə demokratik proses dayanıb.***

- Demokratik prosesi bir məsələ ilə məhdudlaşdırmaq doğru deyil. Demokratiya hamının əvvəlki illərdə düşündüyü kimi, xalq hakimiyyəti məsələsi deyil. O, xalqın ümumiyyətlə hakimiyyət prosesində iştirak etmədiyi zamanlara aiddir. İndi demokratiya düşüncədir, yaşam tərzidir, vərdişlərdir, geopolitik məsələdir, coğrafiya məsələsidir. Niyə Güney Amerikada, Yaxın Şərqdə, Afrikada, Asiyada demokratik ölkə yoxdu? Ancaq Avropa coğrafiyası bütünlükdə demokratikdir, Quzey Amerika Mərkəzi Amerika coğrafiyasına yaxınlaşana qədər demokratikdir. Postsovet ölkələri də demokratik deyil. Baltikyanı respublikalar, Ukrayna sovet dönəmində belə psixoloji cəhətdən də bizdən çox fərqli olub. Ukrayna demokratik cəhətdən Azərbaycandan xeyli irəlidədir - Krım, Luqansk, Donetsk, ... parçalanma təhlükəsi kimi böyük problemləri var. Gürcüstan demokratik cəhətdən Azərbaycandan bir xeyli irəlidədir - Abxaziya, Osetiya problemi çözülməyib, Rusiya istənilən zaman ölkəni təhdid edə bilir. Bizdən üçüncü irəli olan ölkə Moldovadı - Dnestryanı, Qaqauziya problemləri qalır, hakimiyyət davamlı dəyişir. Demokratiya məsələsində bizdən öndəki dördüncü ölkə Ermənistandır. Bu ölkə Rusiyanın nəzarətindən heç cür qurtula bilmir. Beşinci yerdə Azərbaycandır. Dağlıq Qarabağ problemimiz var və həllini gözləyir. Bir anlıq düşünək - biz demokratiyanın dozasını artırdıqca nə dəyişir? Biz anlamalıyıq ki, Rusiya regiondan çıxmayana qədər ciddi dəyişiklik mümkün deyil. Qazaxıstanda bu gün problemlər yox deyil ki, Nursultan Nazarbayev və hakimiyyəti çox ağıllıdır. Yox. Sadəcə, o ölkədə demokratiya yoxdur, Rusiya ora müdaxilə etməyə lüzum və əsas görmür. Özbəkistanda da eləcə - bu ölkədə Rusiyaya lazım olan ənənəvi idarəçilik forması var. Tacikistan, Türkmənistan onun kimi. Qırğızıstan aradabir demokratik olmaq istəyir, buna can atır və orada problemlər yaranır.

***- Belə çıxır ki, demokratik proseslər güclənəndə hakimiyyətlərə nəzarət Rusiyanın əlindən çıxır və buna görə də basqıları artırır.***

- Bəli. Demokratik proseslər başlanan kimi Rusiya həmin ölkələrə problemlər yaradır. Biz əgər demokratik cəbhədə təkbaşına irəliləmək missiyasını üzərimizə götürsək, Rusiyanın bizə təsiri nə qədər olacaq və biz o təsirlərin qarşısında dayana biləcəyikmi? Biz anlamalıyıq ki, Güney Qafqaz regionu, postsovet ölkələri demokratik inkişaf üçün bütöv bir məkandır. Rusiya o qədər güclü, Qərbin isə postsovet ölkələrini qorumaq mexanizmi o qədər zəifdir ki, birləşərək demokratik cəbhə yaratmaq imkanlarımız yoxdur. Azərbaycan, Gürcüstan, Ermənistan üçü bir yerdə demokratiya uğrunda mübarizə aparmış olsaydı, çoxdan nail olardı. Biz hətta GUAM çərçivəsində demokratik prosesləri irəlilədə bilsəydik, MDB-yə alternativ yaradıla bilsəydi, burada demokratik dəyişikliklərə nail ola bilərdik. Demokratik islahatlar təkbaşına aparılsa, belə problemləri, fəsadları da o qədər çox olacaq. Bunu Qərb ekspertləri də ciddi şəkildə düşünməlidir ki, bu coğrafiyanı demokratikləşdirmənin mexanizmi nədir. Eyni zamanda bu ölkələrin müdafiə mexanizmi haqqında düşünülməlidir. Bu gün postsovet ölkələri müdafiəsizdir. Rusiya istənilən ölkəyə müdaxilə edə bilir.

***- Geopolitik rakursdan ölkəyə, seçkiyə dönək. Özünü radikal müxalifət adlandıran kəsimin bir hissəsi - AXCP, Milli Şura boykota meyllidir. Demək olar, belə bir qərar artıq var. Bayaq deyirsiz ki, seçiciləri, elektoratı proseslərdən kənarda saxlamaq iqtidarın maraqlarına uyğundur. Boykotu necə bir variant sayırsınız?***

- Bu, bilirsizmi nəyə bənzəyir? İnsan xəstələnir, xəstəliyə tabe olur, deyir ki, mən daha dərman içməyəcəm, nə olursa-olsun. Milli Şuranın bu gün boykot qərarı verməsi əslində hakimiyyətə tabe olması deməkdir. Bəzən bizə sual verirlər ki, bilmirsinizmi bunun mənası yoxdur? Biz bunu bilirik. Güney Azərbaycanda 1945-ci ildə məğlub olan 21 Azər hərəkatından sonra 10 minlərlə insan həyatını itirib, ancaq yenə də mübarizə aparırlar.

***- Bu, milli hədəf deyil axı...***

- Seçki milli hədəfdir, demokratikləşmə milli hədəfdi. Qərbin, Qərb dəyərlərinin yanında yer almaq milli hədəfdir.

***- Yəni demokratiya uğrunda şəhid olmaq da olar?***

- Niyə şəhid oluruq ki? O radikal düşüncəni dünyada və coğrafiyamızda baş verən proseslərə görə kənara qoymağı bacarmalıyıq. Onsuz da bizi bu cilddə, bu qəlibdə, bu libasda Qərbin özü də qəbul etmir, səni anlaşmaya dəvət edir, masa arxasına dəvət edir. Seçkidə iştirak etməyən siyasi partiya hansı mübarizə formasını seçir? 10 cəbhəçi ilə, 10 ümidçi ilə, 10 müsavatçı ilə görüşməkləmi? Bu insanlar onsuz da müxalifətin yanındadır. Müxalifət seçiciyə açılmağı bacarmalıdır. Bunun da ən unikal forma və imkanlarından biri seçki dönəmidir. Az da olsa efir vaxtı, təmas imkanları əldə edirsən, az da olsa seçici ilə ünsiyyət əldə edirsən.

***- Deyirsiz, hədəf yalnız mandat deyil?***

- Əlbəttə. Təkcə mandat hədəfi olsaydı, hamı gedib YAP-ın yanında dayanardı, deyərdi, mən də sizi dəstəkləyirəm, sizinlə bir yerdəyəm. Yoxsa adamlar niyə partiya yaradır, niyə müxalifətçilik edir? Mandat prosesin içərisində qazana biləcəyin ən son nailiyyətdir. Əsas seçiciyə fərqli fikri harada çatdırmalısan? Seçici bu ölkədə müxalifət var, "bu ölkədə fərqli insanlar var", - nəticəsinə necə gəlməlidir? Bunu ancaq seçkidə demək mümkündür - başqa yol yoxdur. Virtual məkan, sosial şəbəkə yalnız səsin, fikrin fəal kəsimə çatdırılmasıdır. Bu şəxslərin çoxu münasibətini müəyyənləşdirmiş hissədir. Sıravi vətəndaşın böyük hissəsinin sosial şəbəkə ilə təması yoxdur. Baş verən siyasətin fonunda dayanan böyük gənclik kütləsi var. Onlar prosesə qarışmaq istəmirlər. Biz onları siyasətə gətirməyin yollarını araşdırıb tapa bilmirik. Orta statistik Azərbaycan vətəndaşlarının böyük hissəsi heç qəzet də almır, heç interneti də yoxdur. Bir televiziya imkanları ilə hara getmək mümkündür? Seçkidə isə o televiziya imkanları az da olsa müxalifətə də tanınır.

***- Sizdə müxalifət düşərgəsi üçün seçkilərdə ənənəvi olan bloklaşma prosesi başlayıbmı? Siz kimlə blok yaradırsınız?***

*(ardı var)*

**❑ Qələmə aldı Aygün MURADXANLI**



**"Azərbaycanda dini müxalifət yoxdur, radikallığın elementləri fərqlidir. Ancaq Azərbaycanda müxalifət xalqı siyasətə cəlb edə bilmədiyinə görə başqa təbəqə xalqı prosesə cəlb edə bilər"**

# Böyüyən siyahı

Xalid KAZIMLI



**Hərdən sosial şəbəkədə qeydlər gözə dəyir, ictimai-siyasi fəallar iki ay öncə ölkədə həbsdə olan və siyasi məhbus sayılan şəxslərin cinayətkar adlandırıldığı bəyanata imza qoyan QHT və media qurumlarının tərkibində kimlərin olduğunu araşdırırlar və müzakirə edirlər.**

O siyahıda tanınmış ictimai fəallar və bizimlə münasibəti normal olan həmkarlar var, ancaq bizim adımız həmin siyahının altında yoxdur. O siyahıya biz "Yeni Müsavat" qəzeti olaraq imza qoymamışıq. Bəziləri bunun belə olmasını çox istərdi və bəlkə də qəzetimizin adını orada tapmaq ümidi ilə siyahını dəfələrlə gözdən keçiriblər, amma yoxdur ki, yoxdur.

Güman ki, heç vaxt olmayacaq da. Çünki bunlar şübhəli, qərəzli siyahılardır və bir mətbuat orqanının, hətta QHT-lərin də imza qoymalı olduğu bəyanat, açıqlama deyil.

Biz nəyə görə öz üzərimizə hüquq-mühafizə orqanlarının və ya hakimiyyətin siyasi işlərlə məşğul olan strukturlarının funksiyasını götürməliyik və beynəlxalq hüquq təşkilatları ilə onların arasındakı "siyasi məhbus" qovğasında tərəf tutmalıyıq?

Budur, ölkədə bir-birinin ardınca siyasi motivli məhkəmələr keçirilir və insanlar mühakimə olunur. İttiham edən tərəf "təqsirkarların günahı sübut olundu" deyə bəyanat yayır, müdafiə tərəfi razılaşmır və bu məsələni beynəlxalq məhkəmə instansiyalarına daşıyacağını bildirir.

İşi Avropa İnsan Haqları Məhkəməsinə çıxan şəxslərin əksəriyyətinin sonda bəraət alacağını, qərəzli və sifarişli hökmlər verən hakimlərə görə Azərbaycan dövlətinin cərimələnəcəyini bilə-bilə ya bəri başdan təqibə-təzyiqə məruz qalanın tərəfində olmalısan, ya da qızğın müdafiəçi olmadan neytral qalmalısan.

Açığı, bu məsələ elədir ki, siyasi məhbus hesab edilən adamların hamısını külliyən və birmənalı müdafiə etmək mümkün deyil. Onların içində elə adamlar olub və var ki, fəaliyyətləri ilə insanlara ziyan vurublar. Məsələn, bir vaxtlar separatçı Ələkrəm Hümbətovın adı siyasi məhbusların sırasında gedirdi. Yaxud, bir vaxtlar erməni xüsusi xidmətinin sifarişi və təlimatı ilə Bakı metrosunda terror aktı törədərək 20-yə yaxın həmvətənimizin ölümünə bais olan "sadval"çıların adı siyasi məhbusların siyahısına salınmışdı.

Bundan başqa, istintaqında və mühakiməsində pozuntulara yol verilmiş, siyasi məsələlər qarışmış elə şəxslər var ki, onların ekstremist dini qruplaşmaların üzvü olduqları, xaricdən idarə olunduqları, ölkədə qarışıqlıq yaratmağa hazırlaşdıqları birmənalı şəkildə sübut olunub.

Belə adamları demokratiya və insan haqları uğrunda mübarizə apardıqlarına görə həbs olunmuş Tofiq Yaqublunun, İlqar Məmmədovun, Yadigar Sadıqovun, Sirac və Fərəc Kərimli qardaşlarının, Seymur Həzinin, Pərviz Həşimlinin, Anar Məmmədlinin, "Nida" təşkilatının üzvlərinin və digərlərinin adının yanında necə çəkəsən?

Tərs kimi, hakimiyyət adamları, hüquq-mühafizə orqanları o cür "siyasi məhbus"larla əsl siyasi məhbusları bir-birinə elə qatıblar ki, onlardan kimin kim olduğunu ayırd etmək üçün ciddi təfərrüata ehtiyac var.

Daha pisi odur ki, siyasi məhbusların siyahısı genişlənməkdə davam edir. Əfvi gözlənilənlər, həbsdən buraxılması artıq zəruri, vacib olanlar buraxılmır, əvəzində yeniləri məhkum edilir.

Bundan əvvəlki seçki illərində hakimiyyət beynəlxalq təzyiqləri bir az yumşaltmaq, mötədil seçki atmosferi görüntüsü yaratmaq üçün azadlığa buraxılması tələb olunan siyasi dustaqları hələ seçkiyə 6 ay qalmışdan azad edirdi.

Bu il isə seçkiyə 3 ay qalır, ancaq siyasi məhbusların sayı artırılır. Az qala bütün beynəlxalq təşkilatlar, eləcə də qüdrətli demokratik dövlətlər Azərbaycandakı bu durumu qətiyyətlə pisləyirlər, amma xeyri yoxdur, hakimiyyətin dünya birliyinə meydan oxuması davam edir.

Bu durum nə vaxta qədər davam edəcək, bəlli deyil. Bəlli olan odur ki, hər şey pisliyə doğrudur.